# AQTA-nın vəzifəli şəxsinə qarşı rüşvət ittihamı

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№40 (3331) 22 Oktyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik

ANA XƏBƏR



## Kiberdələduzların yeni fırıldağı

# Nüvə silahından daha təhlükəli addımlar

Dünyada əhali artımının qarşısını almaq üçün ailə dəyərləri necə məhv edilir...



## Avrointeqrasiya, impiçment prosesi və yeni münaqişə potensialı

3

GÜNÜN NƏBZİ

Müsahibə



### "Azərbaycana ən böyük təhlükə Gürcüstan ərazisindədir"

Taryel Əliyev: "Lakin bu təhlükə oradakı Qərbpərəst yox, tamamilə başqa qüvvələrdir..."

8-9

Cəmiyyət

### ADP ölkəmizin BRICS-ə üzv olmasına qarşıdır

"Azərbaycanın Rusiya ilə birlikdə BRICS-də təmsil olunması ölkəmizin müstəqilliyi və suverenliyi üçün təhdiddir"

4

Ölkə

### "Bizə məhkəmədə danışmağa söz verilmir..."

Tələbə qızı avtoqəzada vəfat edən Hacıqabul sakinindən İnam Kərimova müraciət

2

Ölkə

### "20 min dollarımızı "yedilər", nəticəsi isə sıfırdır"

Azərbaycan vətəndaşı Türkiyənin "A life Park" hospitalından şikayətçidir

2

Mövqe

### Payız depressiyası nədir, qarşısını necə almaq olar?

Psixoloq Vəfa Rəşidova: "Yay fasiləndə istirahətdə olmayan insanlar daha çox depressiyaya meylli olur"

7

Mövqe



### Kompüter arxasında çox oturanları nə gözləyir?

Elvin Əliyev: "Davamlı oturmaq təkcə fiziki sağlamlığa deyil, ruh sağlamlığına da mənfi təsir göstərir"

7

Layihə



### Birinci sinif şagirdinin ingilis dilini öyrənməsinə ehiyac varmı?

Kamran Əsədov: "Bu, gələcəkdə daha geniş imkanlara sahib olmalarına kömək edə bilər"

11

Cəmiyyət

### Həbsxanalara dərmanların verilməsi dayandırılıb

Məhkum Əli Səmədov: "Kasıb, kimsəsiz məhkumlar yalnız öləcəyi günü gözləyirlər"

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar xidmətinin 15 saylı Cəzaçəkmə Müəssisəsinin tibb sanitar hissəsində cəza çəkən 1-ci dərəcəli əlil məhkum Səmədov Əli Azər oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Onun məktubunu olduğukimi dərc edirik: "Yazıb sizə bildirirəm ki, mən hazırda xəstəliyimlə əlaqədar tibb sanitar hissədə müalicələrə cəlb edilmişəm. Səhhətimin ağır olması səbəbi ilə müalicə ala bilmədikdə cəzamı çəkə bilmirəm...

4

Fakt

### Azərbaycanda narkomanların dəqiq statistikası niyə yoxdur?

Qanunvericilikdəki boşluqlar qeydiyyatın və onların təhlilinin aparılmasına əngəllər yaradır

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra ölkədə işsizlik, işğal edilmiş torpaqlardan gələn qaçqın və məcburi köçkün axını, iqtisadi böhran, sərhədlərin lazımınca qorunmaması narkotiklərdən istifadə hallarının artmasına səbəb oldu. SSRİ-nin dağılması nəticəsində yaranmış bütün sosial dəyişikliklər narkomaniyanın yayılmasına səbəb olan əsas amillər sırasında idi. Bəllidir ki, Azərbaycan tranzit öləədir və narkotiklərin Asiyadan Avropaya və Rusiyaya nəqli marşrutunda yerləşir...

15

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№40 (3331) 22 Oktyabr / 2024-cü il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

# Britni Spirs özü ilə evləndi

## Ərindən boşanan məşhur müğənni son zamanlar çılpaq şəkilləri, maraqlı rəqs videoları ilə diqqət çəkirdi...



**May ayında əri Sem Əsgəridən boşanan Britni Spirs özü ilə evləndiyini açıqlayaraq pərəstişkarlarını təəccübləndirib.**

Xarici KİV-lərin xəbərinə görə, son zamanlar çılpaq şəkilləri, maraqlı rəqs videoları ilə diqqət çəkən Britni Spirs bu dəfə evləndiyini açıqlayıb.

42 yaşlı pop müğənnisi sosial şəbəkədə atlas kremi paltarda və duvaqda çəkdirdiyi şəklini paylaşaraq yazıb: "Bu gün özümlə evləndiyim gündür. Bu, utancverici və ya axmaqlıq ola bilər, amma məncə, bu, indiyə qədər etdiyim ən ağıllı şeydir".

Məşhur müğənninin Sem Əsgəridən boşandıqdan sonra bu açıqlamanı verməsi diqqət çəkib. Əsgəri Spirsi dələduzluqda ittiham edib. Cütlüyün birliyindən uşaqları yoxdur. Bununla belə, Britni Spirsin keçmiş əri Kevin Federlayndan 19 və 18 yaşlı iki oğlu var. Federlayndan boşandıqdan sonra Spears uşaqlarının qəyyumluğunu itirib və uzun illər oğulları ilə görüşə bilməyib.

2020-ci ildə psixi sağlamlıq mərkəzində müalicə alan Britni Spirs son illər yaradıcılığı ilə yox, çılpaq rəqs videoları ilə diqqət çəkir.

*Əyləncə səhifəsi*

# Meyvələrin şahı - nar



Qədim zamanlardan "meyvələrin şahı" sayılan nar hazırda yenə "titul"unu qoruyub saxlayır. Hətta çox-çox keçmişdə bu meyvə ilə bağlı bir sıra adət-ənənələr olub. Belə ki, qədim Misirdə dünyasını dəyişəni dəfn edən zaman yanına nar qoyublar. Bu adət ölünün yenidən yaşamasına ümidin simvolu bilinib.

İndinin özündə də nar həyat rəmz kimi qəbul olunur, məhsuldarlığı, bolluğu ilə seçilir. Həm də sevgi etirafı üçün nar əlimizdə yaxşı vasitədir.

Bütün bunlarla bərabər, həyatımızı sağlam yaşamağımızda böyük əhəmiyyətə malikdir. Odur ki, narın müalicəvi xüsusiyyətləri haqqında danışmaq istəyirəm.

Məlumat üçün bildirim ki, narın birinci Vətəni İran olsa da, ən qiymətli növü eramızdan əvvəl qədim Yunanıstanın Kar fa gen vilayətində becərilib. Onu ilk dəfə elmi təbabətə gətirənlər isə Hind həkimləri olublar. Daha sonra misirlilər, yunanlar, assuriyalılar bir sıra xəstəliklərdən qurtulmaqdan ötrü ondan istifadə ediblər. Cin təbibləri daha qabağa gedərək, narın qabığını qurudub və öz xəstələrini sağaldıblar.

Bəli, nar çox xəstəliyin dərmanıdır. Lakin gərək, ondan düzgün istifadə etməyi bacarasan. Nar ağızda şirin və turş dadı verir. Bu onun növündən asılıdır. Tərkibində şəkər və limon turşusu olmaqla bərabər, həmçinin vitaminlər, boyaçı maddələr, makro və mikroelementlərlə zəngindir. Məhz odur ki, turş narın şirəsi diabetdən əziyyət çəkənlər üçün yaxşı dərmandır. Eyni zamanda, tərkibində qan dövranını qaydaya salan antioksidentların zənginliyinə görə damarlardakı aterosklerozun inkişafını ləngidir. İkinci tərəfdən yorğunluq, qanazlığı, bronxial astma, angina zamanı nar şirəsini qəbul etmək olduqca xeyirlidir, eləcə yoluxucu xəstəliklərin qarşısını vaxtında ala bilir.

Nar iştahanı yaxşılaşdırır, başağrılarını aradan qaldırır, hipertoniyanın müalicəsində yüksək effekt verir. Boğaz, ağciyər üçün faydalı olmaqla öskürəyi kəsmək qabiliyyətinə malikdir. Suyu içiləndə bağırsaqların fəaliyyəti yaxşılaşır. Son vaxtlar dırnaq iltihabı, cərrahi yaraların müalicəsində də nar tumunun balla qarışdırılaraq həmin yerə tətbiqi geniş yayılıb.

Göründüyü kimi, narın hər dənəsində bir həyat vardır. İndi bizlərə qalır ondan istifadə edib, sağlamlığımızın qayğısına qalmaq...

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Biliyinin üzvü**



# Al Paçinonu qadın oğurlamaq istəyib...

**"Xaç atası", "Gucci evi" və "Əsl oğlanlar" filmləri ilə tanınan amerikalı aktyor Al Paçino həyatında baş verən qəribə hadisədən danışıb.**

Lent.az xarici mediaya istinadən xəbər verir ki, ulduzun sözlərinə görə, o, az qala adam oğurluğunun qurbanı olacaqdı.

Aktyor xatirələrində uzun illər əvvəl başına gələn bir hadisəni danışıb. "Xaç atası" filminin nümayişindən sonra Al Paçino dərhal tanınmağa başladı.

Və bir gün o, qardaşı ilə spirtli içki içib otelə yol tapa bilməyəndə gözlənilmədən bir qadın ona kömək etmək qərarına gəlib.

"Onun maşınına mindik, hətta sərxoş halda da, məni qaldığım yerə aparmadığını anladım. Burada nə baş verir?" deyə soruşdum və maşından düşmək istədim. Lakin qadın dayanmadı və yoluna davam etdi. O mənə səni qaçırıram, dedi. Qardaşımı oyatdım və biz onu maşını saxlama məcbur etdik. Hələ də qadının kimliyini bilmirəm" -deyə 84 yaşlı aktyor bildirib.

# Dünyanın ən seksual idmançısı...

**"Busted Coverage" jurnalı dünyanın ən seksual idmançısı kimi tanıdığı alman qaçışçı Alisa Şmidtin "Instagram"dakı yeni fotosunu yayıb. Fotoda idmançı yaşıl dəri palto, mini ətək və kobud kişi çəkmələrində pozalar verib. Şmidt Berlində bir restorana baş çəkdiyini yazıb.**

Alman qaçışçı 2024-cü ildə Parisdə keçirilən Olimpiya Oyunlarında iştirak edib. O, Almaniya komandasının tərkibində dörd x 400 metr məsafəyə estafet yarışında çıxış edib.

2017-ci ildə Şmidt 20 yaşadək idmançılar arasında Avropa çempionatında dörd x 400 metr estafet yarışında Almaniya komandasında ikinci yeri tutub. İki il sonra idmançı U23 Avropa çempionatında estafetdə bürünc medal qazanıb.



**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# “20 min dollarımızı “yedilər”, nəticəsi isə sıfırdır”

## Azərbaycan vətəndaşı Türkiyənin “A life Park” hospitalından şikayətçidir






**Azərbaycan vətəndaşı Fətəliyev Ağamirzə Hacıbala oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. O, Türkiyənin “A life Park” hospitalından şikayətçidir. A.Fətəliyevin müraciətini olduğu kimi dərc edirik:**

“Mən, Fətəliyev Ağamirzə Hacıbala oğlu, bildirirəm ki, 2022-ci il aprel ayının 14-də həyat yoldaşım Gülgəz Fətəliyevanın sağ dizində olan protez bərpa olundu. 15 aprel tarixində yoldaşımı evə gətirdim.

16 aprel 2022-ci il tarixində insult keçirdi. O vaxtdan bəri daha iki dəfə, 2022-ci ilin dekabr ayında və 2024-cü ilin mart ayında insult keçirib. Bu səbəbdən, hərəkətsiz qaldığı üçün sağ dizində olan protez yararsız hala düşdü, xəstə ayaq üstə dura və hərəkət edə bilmədi. Hal-hazırda xəstə 1-ci qrup əlildir.

Sağ dizindəki protezi dəyişdirmək üçün tanınmış travmotoloq , ortoped həkimlərə müraciət etdik. Onlar dedilər ki, xəstə müəyyən müayinələrdən keçəndən sonra biz qərar verə bilərik. Ən əsas müayinədən biri də boyun damarları oldu. Hansı ki, beyni qanla təmin edirlər.

Kompüter tomoqrafiyası zamanı aşkar olundu ki, sağ tərəfdə damar 100 faiz, sol tərəfdə isə 30 faiz tutulub.

Bakıda olan 4 tanınmış damar cərrahından heç biri bu damarların əməliyyat etməyə razılaşmadılar. Dedilər ki, o damarlara əl vurulsa xəstə ölər.

2 il 5 aydan sonra qərara aldıq ki, Türkiyənin ya İstanbul, ya da Ankarada olan klinikalarının biri ilə əlaqə saxlayaq, bəlkə bu əməliyyatı apara bilən həkim tapıldı. 17 avqust 2024-cü il tarixində Azərbaycanda uzun müddət çalışmış Avni və Mehmetali Metin adlı tanışlarıma müraciət etdim. İki gün keçmiş Mehmetali Metin mənə zəng edib dedi ki, Türkiyənin Ankara şəhərində yerləşən tanınmış “A life Park” adlı hospital var, sənədləri göndər, baxıb qərar versinlər.

Mən də rentgen və tomoqrafiya çəkilmiş diskləri ona göndərdim. Əlavə olaraq dedim ki, boyun damarları tıxanıqlı olduğuna görə buradakı həkimlər protezi dəyişdirməyin qeyri-mümkün olduğunu dedilər. Bildirdim ki, professorlar göndərdiyim sənədlərə, disklərə diqqətlə baxıb, sonra qərar versinlər. Müsbət qərar verdikləri halda əməliyyatın dəyərini də dəqiqləşdir ki, hazırlıqlı gələk. Onu da xahiş etdim ki, dəqiqləşdirsin, ora gələndən sonra deməsinlər ki, əlavə bu qədər ödəməliyik.

İki gün sonra Mehmetali Metin mənə zəng edib dedi ki, əməliyyatların qiyməti hər şey daxil 22 min dollar olacaq. Bura gələndən 2 gün sonra sol damar, 5 gün sonra sağ boyun damarı, 7 gün sonra protez dəyişdiriləcək. 7 gün sonra durub, ayağı ilə Bakıya gedəcək.

Biz həm kədərləndik, həm də sevindik. Kədərləndik, ona görə ki, 22 min dollar tapılacaqmı?! Qızım birotaqlı evini təcili olaraq 45 min manata satdı. Sentyabrın 8-də Ankaraya getdik. Axşam saat 23-də xəstəxanaya çatdıq. Mehmetali Metinin iştirakı ilə 20 min dolları (depozit yatırımı) köçürdük.

9 sentyabr 2024-cü il tarixindən qan analizləri, dizin rentgeni, baş-boyun tomoqrafiyası və s. müayinələrə başladılar. Bu proses sentyabrın 12-ə kimi davam etdi.

Həkimin 10 dəqiqə konsultasiyasına görə, 13 587.04 TL (399.62 dollar) ödəniş yazıblar. Konsultasiyanın nəticəsi yoxdursa, o ödəniş olunmamalıdır. Yaxud fizioterapiya və reabilitasiya (A qrupu) - 2 683.44TL (79 dollar). Hansı fizioterapiyadan söhbət gedə bilər? Diaqnoz qoyulmadan fizioterapiya və reabilitasiya necə oluna bilər? Bir halda ki, müayinələrin nəticəsi olmadı, biz onlara ödəniş etməməliyik. Nazmiyə xanım (baş müdirin köməkçisi) anladı ki, əməliyyat baş tutmayacaq.

Müxtəlif bəhanələrlə bizi 15 gün orada saxladılar. Ödədiyimiz pulları rahatlıqla həzm etdilər. Mən Mehmetali Metinə dedim ki, bizim bu günə qədər nə qədər xərcimiz çıxıb? Nazmiyə xanım axşam mənə dedi ki, 21 min 730 dollar xərclənib. Lkain heç bir əməliyyat baş tutmadı. Bir sözlə, 20 min dollar pulumuzu “yedilər”, nəticəsi isə sıfırdır”.

**Aynurə İSMAYIL**

# AQTA-nın vəzifəli şəxsinə qarşı rüşvət ittihamı

## Göyçay sakini: “Kim pul veribsə, onun məhsulunun Rusiyaya aparılmasına razılıq verilib, biz isə bir neçə gündür gözləyirik”

**Göyçay rayonu, Cəyirli kənd sakini, 3-cü dərəcəli gözdən əlil Abışov Natiq Məzahir oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. N.Abışov Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) Mərkəzi Aran Regional bölməsinin rəisi Eldəniz Qəribovdan şikayətçidir:**

“Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Mərkəzi Aran Regional bölməsinin rəisi Eldəniz Qəribov vəzifəsindən sui-istifadə edərək kəndlilərə hucum edir, onlara küllü miqdarda ziyanlar vurur.

Bildirim ki, biz bağçılıqla məşğul olub, ailəmizi birtəhər dolandırırıq. Hər il mövsümü meyvələri özümüzün və digər şəxslərin bağından alıb Rusiyaya aparır, satıb əldə etdiyimiz gəlirlə ailəmizi dolandırırıq.

Həmişəki kimi, bu il də xurma meyvələrini tədarük edib, yük maşınlarına yığıb Rusiyaya satmağa aparmaq istəsək də, AQTA-nın Mərkəzi Aran Regional bölməsinin rəisi Eldəniz Qəribovun göstərişi ilə qanunsuz qadağa qoyulmuşdur. Bizdən qanunla nəzərdə tutulmayan sənədləri tələb edir ki, həmin sənədləri əldə etməyə 1 ay vaxt lazımdır. Ancaq bu müddət ərzində xurma meyvəsi yük maşının xarab olacaq ki, nəticədə də bizə küllü miqdarda ziyanlar dəyəcək.

Tonlarla xurma meyvəsi yığılmış çoxlu sayda yük maşını Eldəniz Qəribovun qadağasına görə bir neçə gündür Kürdəmir rayonu ərazisində gözləyir. Kim pul veribsə, onun məhsulunun Rusiyaya aparılmasına razılıq verilib, biz isə bir neçə gündür gözləyirik. Belə getsə, məhsullarımız zay olacaq. Bu isə küllü miqdarda ziyan deməkdir.




## “Tonlarla xurma yığılmış çoxlu sayda yük maşını Eldəniz Qəribovun qadağasına görə bir neçə gündür Kürdəmir rayonu ərazisində gözləyir”

Çünki, bu halda nisiyə aldığımız meyvələrin pulunu ödəyə bilməyib, borcla yüklənib bədbəxt olacağıq.

Biz Prezident cənab İlham Əliyevə inanıb, ona müraciət edirik. Siz həmişə sahibkarlığın, fermer təsərrüfatlarının inkişaf etdirilməsi üçün sərəncamlar imzalamısınız, sahibkarların qayğısına qalmısınız. Hörmətli Prezident, Sizdən xahiş edirik ki, bizim müraciətimizi araşdırıb, xurma meyvələrimizin Rusiyaya aparılmasına qoyulmuş qadağanın aradan qaldırılmasına kömək edin”.

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Mövzunu araşdıracağıq. AQTA-nın Mərkəzi Aran Regional bölməsinin rəisi Eldəniz Qəribovun mövqeyini də dərc etməyə hazırıq.**

# “Bizə məhkəmədə danışmağa söz verilmir...”

## Tələbə qızı avtoqəzada vəfat edən Hacıqabul sakinindən İnam Kərimova müraciət



**Hacıqabul rayon sakini Əsgərova Mirvari Baladadaş qızı tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Ali Məhkəmənin sədri İnam Kərimova müraciət ünvanlayıb. Müraciəti olduğu kimi dərc edirik:**

“Yazıb bildirmək istəyirəm ki, övladım Əsgərova Əzizə Qalib qızı 2023-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinə (ADPU) qəbul olmuş və “Tarix və coğrafiya fakültəsi”ninTarix müəllimliyi ixtisası üzrə təhsil alırdı. Elə həmin ilin noyabr ayında ADPU-nun müəllimləri tələbələri Binəqədi Gənclər Evinə kinoya aparmışdılar. Həmin vaxt qızım Gənclər Evindən marketə su almağa gedib.

21 noyabr 2023-cü il tarixdə, saat 14:30 radələrində Zeynalov Firdovsi Novruz oğlu etibarnamə əsasında idarə etdiyi “Toyota Prius” markalı minik avtomobili ilə Bakı şəhəri, Binəqədi rayonu, S.S.Axundov küçəsi ilə Binəqədi Rayon Məhkəməsi istiqamətində hərəkət edərkən yolun sol tərəfindən sağa doğru keçən övladım Əsgərova Əzizə Qalib qızını avtomobillə vuraraq, onun açıq kəllə-beyin travması almasına səbəb olmuşdur. Qızım Əzizə Əsgərova avtomobil qəzası nəticəsində bir neçə gün komada qaldıqdan sonra dünyasını dəyişdi.

Qızımın ildönümünə az qalıb. Amma cinayətkar Zeynalov Firdovsi Novruz oğlu hələ də azadlıqdadır. Hansı səbəbdəndir, bilmirik?! Məhkəmə iclasları uzadılır. 6 dəfə məhkəmə prosesi keçirilib, ortada bir nəticə yoxdur. Məhkəmənin hakimi Aygün Qurbanova və cinayətkarın vəkili Elxan Quliyev əlbir olub, məhkəməni uzadırlar.

Keçirilən məhkəmələr niyə uzanır? Burada maddi maraqları nədir? Bizdən valideyn olaraq heç bir söz soruşulmur. Bizə danışmağa söz belə, verilmir, işi öz aralarında həll edirlər.



Xahiş edirik bu işə layiqli baxılsın. Qızımın ilinədək cinayətkar cəzasını alsın”.

**Aynurə İSMAYIL**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# Avrointeqrasiya, impiçment prosesi və yeni münaqişə potensialı

## Gürcüstandakı parlament seçkiləri regionda güc balansını ciddi şəkildə dəyişdirə bilər

Gürcüstanda dekabrın 26-da keçiriləcək parlament seçkiləri ölkənin siyasi sistemində demokratik institutların möhkəmləndirilməsi, Avropa İttifaqına inteqrasiya və regional təhlükəsizlik məsələləri baxımından həlledici məqam olacaq. Bu seçkilər həm də Gürcüstanın geosiyasi orientasiyasını müəyyən edəcək - Avroatlantik strukturlara yaxınlaşma və ya daha çox avtoritar meylli Rusiyanın təsiri altına düşmə riskini artıracaq. Gürcüstanın siyasi elitasının atacağı addımlar regionda güc balansını ciddi şəkildə dəyişdirə bilər.



### Gürcüstanın Avrointeqrasiya prosesi: Strateji hədəflər və qanunvericilik problemləri

Avrointeqrasiya Gürcüstan üçün təkcə xarici siyasət məsələsi deyil, həm də ölkə daxilindəki demokratik dəyərlərin qorunması və sosial-iqtisadi islahatların həyata keçirilməsi üçün vacib bir prosesdir. Gürcüstanın Avropa İttifaqına üzv olmaq niyyəti, liberal demokratiyanın əsasları olan qanunun aliliyi, insan hüquqlarına hörmət və müstəqil məhkəmə sisteminin gücləndirilməsini tələb edir. Lakin bu islahatların həyata keçirilməsində Gürcüstan hökumətinin zəif nəticələri, xüsusilə də məhkəmə sisteminin müstəqilliyi ilə bağlı geriliklər Avropa Komissiyası tərəfindən tənqid edilib. 2022-ci ildə Avropa İttifaqının Gürcüstan hökuməti qarşısında qoyduğu 12 şərtdən biri də məhkəmə və seçki islahatlarının həyata keçirilməsi idi. Lakin siyasi analizlər göstərir ki, Gürcüstan hökuməti bu sahədə hələ də tələblərə cavab vermir. Beynəlxalq hüquq və demokratiya nəzəriyyələrinə əsasən, bu vəziyyət Gürcüstanda institusional demokratiyanın zəifləməsinə gətirib çıxara bilər. "Güc bölgüsü" prinsipi ciddi şəkildə pozulursa, nəticədə icra hakimiyyəti digər sahələrə təsir edərək demokratik mexanizmləri sıradan çıxara bilər.

Nümunə olaraq, Gürcüstanın Avropa İttifaqına üzv olmaq istəyən digər post-sovet ölkələrlə müqayisə olunması mümkündür. Məsələn, Ukrayna və Moldova Gürcüstan ilə oxşar inteqrasiya yoluna çıxmışdılar, lakin Avropa İttifaqı islahatların həyata keçirilməsində daha sürətli addımlar atmış bu ölkələrə üstünlük verib. Bu da Gürcüstanın geridə qalmasının əsas səbəbi kimi qiymətləndirilir.

### İmpiçment prosesi: Demokratik institutların zəifliyi və Avrointeqrasiyaya maneələr

2023-cü ildə prezident Salome Zurabişviliyə qarşı başladılmış impiçment prosesi Gürcüstanda prezident və parlament arasında güc mübarizəsini açıq şəkildə ortaya qoydu. Hakim "Gürcü Arzusu" partiyası Zurabişvilinin xarici siyasətlə bağlı qanunsuz səfərləri səbəbiylə konstitusiya pozuntusuna yol verdiyini irəli sürdü. Zurabişvili isə bu ittihamların siyasi motivli olduğunu bildirərək, Avropa İttifaqı ilə münasibətlərin inkişafı üçün xarici səfərlərin vacibliyini vurğuladı. Bu proses Gürcüstanın demokratik institutlarına və dövlət idarəçiliyində güc balansına ciddi təsir göstərdi. Beynəlxalq siyasi elmlərdə geniş müzakirə olunan "konstitusiya böhranı" anlayışı bu situasiya ilə birbaşa əlaqədardır. Parlament və prezident arasında səlahiyyətlərin müvafiq bölünməməsi Gürcüstanı qərb demokratiya modellərindən uzaqlaşdırır. Beynəlxalq ekspertlər, o cümlədən Gürcüstanda fəaliyyət göstərən NDI (National Democratic Institute) və Avropa Şurasının nümayəndələri, prezident və parlament arasındakı bu siyasi gərginliyin Avrointeqrasiya prosesini ləngitdiyini bildirirlər. Məsələn, NDI-nin Cənubi Qafqaz üzrə analitiki Laura Thornton qeyd edib: "İmpiçment cəhdləri Gürcüstanda siyasi sistemin qeyri-sabitliyini göstərir və demokratik institutların zəifləməsinə səbəb ola bilər. Avropa İttifaqı ilə inteqrasiya üçün isə bu institutların daha da güclənməsi vacibdir." Onun fikrincə, bu cür daxili gərginliklər Gürcüstanın Avropa yolundakı sürətini kəskin şəkildə azaldır və Rusiyanın təsirini artırır.



### Yeni münaqişə potensialı: Regional sabitlik və Rusiya faktoru

Gürcüstan üçün təhlükəsizlik məsələləri hər zaman xarici siyasətin ən həssas aspektlərindən biri olub. Xüsusilə Cənubi Osetiya və Abxaziya kimi münaqişə zonalarının mövcudluğu, ölkənin suverenliyi və ərazi bütövlüyü baxımından əsas təhlükələrdən biri kimi qalır. Rusiyanın 2008-ci il hərbi müdaxiləsi və bu ərazilərin de-fakto işğalı Gürcüstanın Qərbə inteqrasiyasına mane olan əsas faktor kimi çıxış edir. Rusiya ilə əlaqələrdə bu cür dondurulmuş münaqişələrdən istifadə edilməsi beynəlxalq münasibətlər nəzəriyyəsində "hibrid müharibə" anlayışına aid edilir. Gürcüstanın siyasi təhlilçiləri, məsələn, professor Korneli Kakachia vurğulayır ki, Moskva Gürcüstanın NATO və Avropa İttifaqına üzvlük cəhdlərini əngəlləmək üçün bu münaqişələrdən istifadə edir: "Rusiya Cənubi Osetiya və Abxaziya məsələsini daim aktiv saxlamaqla Gürcüstanın qərbə inteqrasiya prosesini bloklamağa çalışır. Bu münaqişələrdən istifadə edərək, Moskva Gürcüstanın suverenliyini zəifləməyə davam edir". Həmçinin, Kakachia qeyd edir ki, Gürcüstanda daxili siyasi sabitliyin olmaması Moskvanın təsirini artıran bir başqa amildir. Rusiya Gürcüstandakı impiçment və siyasi qeyri-sabitlik proseslərini Qərb və NATO ilə bağlı gərginlik yaratmaq üçün bir fürsət kimi görür.

### İctimai rəy: Seçkilərə doğru sosial bölgü və Avrointeqrasiya

İctimai rəy sorğuları göstərir ki, Gürcüstan cəmiyyətində Avrointeqrasiyaya dəstək geniş olsa da, son illərdə bu məsələdə daxili parçalanmalar artmaqdadır. Gürcüstanın Aİ-yə üzvlük perspektivləri ilə bağlı 2023-cü ildə NDI tərəfindən keçirilmiş sorğuya əsasən, vətəndaşların 78%-i Avropa İttifaqına inteqrasiyanı dəstəkləyir. Lakin siyasi qeyri-sabitlik və sosial-iqtisadi problemlər bu dəstəyin zəifləməsinə səbəb olur. Xüsusən də Gürcüstanın kənd rayonlarında və Rusiya ilə sərhəd ərazilərdə Avrointeqrasiyaya qarşı skeptisizm artır. Beynəlxalq siyasi nəzəriyyədə bu vəziyyət "mərkəz-periferiya ziddiyyəti" kimi tanınır. Bu nəzəriyyəyə görə, paytaxt Tbilisi və Qərbmeylli elitada Avropaya inteqrasiya geniş dəstəklənir, lakin regionlar, xüsusilə daha az inkişaf etmiş bölgələr bu siyasətin onlara iqtisadi fayda gətirəcəyinə şübhə ilə yanaşırlar. Gürcüstanın bu parçalanmış siyasi mühiti sosial-iqtisadi qeyri-bərabərlik fonunda daha da dərinləşə bilər, bu da seçkilərdə radikal siyasi partiyaların mövqeyini gücləndirir.

### Beynəlxalq reaksiyalar və geosiyasi perspektivlər

Gürcüstanın seçki dönəmi beynəlxalq arenada da geniş izlənilir. Avropa İttifaqı və NATO Gürcüstanın demokratik islahatlarını dəstəkləyir və ölkənin regional təhlükəsizlik məsələlərində Qərbə yaxınlaşmasını istəyir. Avropa Şurasının Cənubi Qafqaz üzrə nümayəndəsi Kristine Hensel Gürcüstanda baş verən siyasi gərginliklərin Avrointeqrasiya prosesinə ciddi təsir etdiyini vurğulayır: "Gürcüstandakı siyasi qeyri-sabitlik Aİ-nin regiondakı təsirini azalda bilər. Bu, yalnız daxili məsələlərdən deyil, həm də geosiyasi güc balansından asılıdır". Gürcüstanın Avrointeqrasiya və regional təhlükəsizlik mövzusundakı siyasətləri onun Rusiyanın təsirindən uzaqlaşması və demokratik institutlarını gücləndirməsi baxımından həlledici rol oynayacaq. Gürcüstanın Qərbyönümlü siyasətinə təkan verən beynəlxalq dəstək regiondakı siyasi gərginliklərə qarşı mühüm manea olmalıdır. Lakin daxili siyasi parçalanma və münaqişələrin davam etməsi bu prosesin qarşısında ciddi əngəl ola bilər.

### Nəticə

***2024-cü il Gürcüstan parlament seçkiləri ölkənin demokratik gələcəyini, Avrointeqrasiya prosesini və regional təhlükəsizliyi müəyyən edəcək əsas məqamdır. Hökumət və siyasi elita daxili qeyri-sabitlik və sosial-iqtisadi çətinliklərin aradan qaldırılması üçün addımlar atmadığı təqdirdə, Gürcüstanın Avropa ilə əlaqələri ciddi ziyan görəcək. Bu, həm də regional münaqişə riskini artıraraq, Gürcüstanın geosiyasi orientasiyasını müəyyən edəcək. Eyni zamanda, Gürcüstanda baş verən siyasi proseslər Cənubi Qafqazdakı digər ölkələr üçün bir çox çətinliklər və fürsətlər təqdim edir. Bu vəziyyət regional siyasətlərin formalaşmasında və Cənubi Qafqazın gələcək geosiyasi mənzərəsinin müəyyən edilməsində həlledici rol oynaya bilər.***

**Elmira TALIBZADƏ**



# Abşeron sakinlərindən Fərid Əhmədova müraciət

## "Binamızın idarəetməsini öz üzərimizə götürmək istəyirik, amma..."

**Azərbaycan Respublikasının vətəndaşı, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər ƏLİYEV prospekti 34 ünvanında yaşayan Bayramov Bəxtiyar Həmid oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Ədliyyə naziri Fərid Əhmədova müraciət edən şikayətçi yazır:**

**"Hörmətli nazir!**

Şikayətimiz Ədliyyə Nazirliyinin Qeyri -hökumət Təşkilatları ilə iş şöbəsinin rəisi vəzifəsini icra edən Aslan Hacıyevdəndir. Mən Bayramov Bəxtiyar Həmid oğlu, Abşeron rayonu, Xırdalan şəhəri, Heydər ƏLİYEV prospekti 34 ünvanında yerləşən ESKA Mənzil Tikinti Kooperativinin təsis etdiyi binanın mülkiyyətçilərinin, təsisçilərinin notarial qaydada təsdiq edilmiş rəsmi nümayəndəsiyəm.

Sözügedən binanın tikintisinə 2008-ci ildə başlanılıb. Bina 2014-cü ildə tam hazır olmasa da, biz ev sahibləri, məcburən şəraitsiz şəkildə burada yaşamağa başladıq. Binanın su, qaz, işıq problemini biz sakinlər həll etmişik. 2018-ci ildən bu günə qədər binanın bütün xərclərini biz sakinlər ödəyirik.

2018-ci ildən rəsmi sənədləşməni çıxmaq şərtilə, bütün idarəetməni biz sakinlər edirik. Biz sakinlərin mübarizəsi və təkidi nəticəsində 23.08 2022-ci ildə 212 mənzili, 3 girişi, 1 zirzəmisi və 10 +1 mərtəbəli bina tam yaşayışa yararlı sayılaraq dövlət reyestri xidməti tərəfindən qeydiyyata alındı.

ESKA MTK-nin hal-hazırkı rəsmi müdiriyyətinin dələduzluq və cinayətkarlıq hərəkətlərindən bütün hüquq mühafizə orqanları və aidiyyəti olan orqanlar xəbərdardır. Demək olar ki, Ədliyyə Nazirliyindən başqa, bütün aidiyyəti orqanların bizə köməyi olub.

Qanunda göstərildiyi kimi, bina 23.08.2022-ci ildə yaşayışa tam təhvil veriləndən bir ay sonra ESKA mənzil tikinti kooperativi idarəetməni biz mülkiyyətçilərə həvalə etməli olduqları halda, hələ də öz cinayətkar və dələduzluq hərəkətlərini davam etdirirlər. ESKA MTK-nın müdiriyyətinin sözügedən binaya aid olan vergidən yayınma hallarını üzə çıxartmışam və dövlət büdcəsinə bir milyon manatdan artıq pul ödənilib. Bir sözlə, biz bina mülkiyyətçiləri Mənzil Mülkiyyətçiləri Müştərək Cəmiyyətini yaradıb, idarəetməni öz üzərimizə götürmək istəyirik. Elə buna görə də bütün lazımi sənədləri artıqlaması ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim etmişik və ciddi səbəb olmadan rədd cavabı almışıq.

Biz yenidən 02.10.2024-cü ildə Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyətini Ədliyyə Nazirliyində qeydiyyatdan keçirmək üçün lazımi sənədləri artıqlaması ilə nazirliyə təqdim etmişik. Ümidvarıq ki, heç olmasa bu dəfə bizə bürokratik əngəllər yaradılmayacaq. Biz kimlərinsə mülkiyyətini idarə etmək niyyətində deyilik. Sadəcə olaraq öz mülkiyyətimizi özümüz idarə etmək istəyirik. Bu, bizim Azərbaycan Respublikasının Konstitusiyasında təsdiq olunmuş hüququmuzdur.

**Cənab nazir!**

Biz bina sakinləri artıq dərəcədə sizdən xahiş edirik ki, bizə kömək edəsiniz".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# ADP ölkəmizin BRICS-ə üzv olmasına qarşıdır

## "Azərbaycanın Rusiya ilə birlikdə BRICS-də təmsil olunması ölkəmizin müstəqilliyi və suverenliyi üçün təhdiddir"

## "İsrail-İran arasında hərbi eskalasiya riski bölgə üçün arzuolunmaz nəticələr vəd edir"

**Dünən ADP İdarə Heyətinin növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı zamanı dünyada və regionumuzda baş verən bir sıra ictimai-siyasi hadisələr müzakirə olunub.**

Müzakirələrdə ilk növbədə İsrail dövlətinin Qəzza və Livan ərazisində həyata keçirdiyi hərbi əməliyyatlar və bu əməliyyatlar nəticəsində bölgədə yaşanan humanitar fəlakətdən narahatçılıq ifadə olunub, İsrail dövlətinin beynəlxalq hüquq normalarına zidd olan hərəkətləri qətiyyətlə pislənilib. İdarə Heyəti dünya ictimaiyyətini Yaxın Şərqdə baş verən qanlı müharibənin qarşısının alınması istiqamətində səylərini birləşdirməyə çağırıb. Müzakirələrdə eyni zamanda İsrail-İran münasibətlərinin gərginləşən xətt üzrə inkişaf etməsinin, bu iki dövlət arasında hərbi eskalasiya riskinin durmadan artmasının bölgə üçün arzuolunmaz nəticələrə gətirib çıxaracağından narahatçılıq ifadə edilib və bu iki dövlət arasında mövcud problemlərin dinc danışıqlar yolu ilə həll olunmasının vacibliyi qeyd edilib.

İdarə Heyəti 3 Cənubi Qafqaz ölkəsi - Azərbaycan, Gürcüstan, Ermənistan və 3 bölgə dövləti - Türkiyə, İran, Rusiyanın regional əməkdaşlıq platforması kimi yaradılan "3+3" formatında ötən həftə Türkiyədə adıçəkilən dövlətlərin Xarici İşlər nazirləri (Gürcüstan istisna olmaqla) səviyyəsində baş tutan növbəti toplantısına da münasibət bildirib. İdarə Heyəti "3+3" formatında müzakirə olunan məsələləri, xüsusilə bölgəmizdə sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində əldə olunan razılaşmaları təqdir edib, eyni zamanda bu prosesdə Gürcüstan hökumətinin də təmsilçiliyinin təmin edilməsini vacib hesab edib.

İdarə Heyəti Qərbin və Avropanın iqtisadi gücünə alternativ kimi yaradılan BRICS təşkilatına bir sıra postsovet ölkələrinin üzv olmasına Rusiyanın təşəbbüs göstərməsini bir daha müzakirə edib. Müzakirələrdə qeyd edilib ki, Rusiya-Ukrayna müharibəsi qurtarmayana qədər Azərbaycan bu məsələdə bitərəf qalmalı, bu təşkilata münasibətdə Qazaxstanın BRICS-ə üzv olmaqdan imtina etməsi nəzərə alınmalıdır. İdarə Heyəti hesab edib ki, Azərbaycanın Rusiya ilə birlikdə BRICS-də təmsil olunması ölkəmizin müstəqilliyi və suverenliyi üçün təhdiddir, Azərbaycanın Türk Dövlətlər Birliyinin ciddi təşkilatlanması istiqamətində işlər aparması dövlət və milli maraqlarımız baxımından daha önəmlidir.

İdarə Heyəti son zamanlar Azərbaycanda insan hüquq və azadlıqları sahəsində mövcud olan problemlərin həll edilməsi ilə bağlı beynəlxalq çağırışlara rəğmən, ölkəmizdə gələn ay keçirilməsi nəzərdə tutulan COP-29 beynəlxalq iqlim tədbirinin effektiv həyata keçirilməsi və ölkənin nüfuzuna xələl gəlməməsi naminə Azərbaycandakı siyasi məhbusların azadlığa buraxılması istiqamətində humanist addımların atılmasını milli maraqlarımız baxımından vacib hesab edib.

İdarə Heyəti ötən həftə bir sıra cərimələrin tətbiq edilməsi və artırılması ilə bağlı Milli Məclis tərəfindən müvafiq qanunvericiliyə əlavələrin qəbul edilməsini qətiyyətlə pisləyib, bu cərimələrin artırılmasının korrupsiya və rüşvətə yol açacağını bildirib. Eyni zamanda qeyd edilib ki, cərimələrin artırılmasına paralel olaraq əmək haqları və pensiyaların artırılması təmin edilməlidir, əks halda nəzərdə tutulan cərimələr vətəndaşların sosial-iqtisadi durumuna mənfi təsir göstərəcək.

**Hazırladı: KƏNAN**

# Həbsxanalara dərmanların verilməsi dayandırılıb

## Məhkum Əli Səmədov: "Kasıb, kimsəsiz məhkumlar yalnız öləcəyi günü gözləyirlər"

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Penitensiar xidmətinin 15 saylı Cəzaçəkmə Müəssisəsinin tibb sanitar hissəsində cəza çəkən 1-ci dərəcəli əlil məhkum Səmədov Əli Azər oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Onun məktubunu olduğukimi dərc edirik:**

"Yazıb sizə bildirirəm ki, mən hazırda xəstəliyimlə əlaqədar tibb sanitar hissədə müalicələrə cəlb edilmişəm. Səhhətimin ağır olması səbəbi ilə müalicə ala bilmədikdə cəzamı çəkə bilmirəm.

Sizə bildirirəm ki, iki aydan da artıq müddət keçməsinə baxmayaraq, müəssisəyə dərman preparatlarının gəlişinə məhdudiyyətlər qoyulmuşdur. 15 saylı Cəzaçəkmə Müəssisəsində olduğu kimi, digər Cəzaçəkmə Müəssisələrində, habelə müalicə müəssisəsində də vəziyyət eynidir. Dərmanların bitməsi əsas göstərilərək, xəstə məhkumların müalicələri tamamilə dayandırılmışdır.



Həkimlər əllərindən gələni etmək istəsələr də, dərmanların olmamasına görə, hər gün məhkumlarla mübahisəyə girmək məcburiyyətində qalır və onlardan həmin dərmanları şəxsi vəsaitləri hesabına almaqlarını xahiş edirlər. Mənim kimi sosial müavinət alan məhkumlar dərmanları ala bilsə də, kasıb, kimsəsiz məhkumlar yalnız öləcəyi günü gözləyirlər.

Müraciətimə əsasən, Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin əməkdaşı Məhəl həkim şifahi olaraq bildirir ki, dərmanların bazadan cəzaçəkmə müəssisələrinə göndərilməməsinin başlıca səbəbi Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi rəisinin yeni dəyişdirilməsidir. Onun sözlərinə görə, yeni rəis cəzaçəkmə müəssisələrinə dərman preparatlarının paylanmasına dair sənədləri imzalamayıb. Səbəb olaraq 11 saylı Cəzaçəkmə Müəssisəsinin baş həkimi Elşən İsayevin dərmanları müəssisə ərazisindən qeyri-qanuni çıxarmasıdır. Məsələ Tibb Baş İdarəsi tərəfindən araşdırılır, yəqin ki, önümüzdəki aylarda dərmanlar cəzaçəkmə müəssisələrinə çatdırılacaqdır.

Mən mətbuat vasitəsi ilə Prezident İlham Əliyevə və Ədliyyə naziri Fərid Əhmədova müraciət edərək xahiş edirəm ki, yuxarıda qeyd etdiklərimi obyektiv araşdırıb, qanuni tədbirlər görəsiniz. Əvvəlcədən sizə öz təşəkkürümü bildirirəm".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

Son on ildə dünyanın həddən çox əhali artımı təhlükəsi problemi ilə üz-üzə olduğu qəbul olunmaqdadır. Belə bir nəzəriyyə hökm sürür ki, nəzarət olunmayan əhali artımı dünyanın onsuz da qıt olan mənbələrini istismar edəcək və ətraf mühitin axırına çıxacaq. Cilovalana bilməyən əhali ildən-ilə daha çox qida, enerji və digər qaynaqlara ehtiyac duyacaq, nəticədə qlobal istiləşmə və başqa iqlim fəlakətləri planetin sonunu gətirəcək.



# Nüvə silahından daha təhlükəli addımlar

## Dünyada əhali artımının qarşısını almaq üçün ailə dəyərləri necə məhv edilir...

**Bura LGBT-nin təbliği, ailə dəyərlərinin gözdən salınması, məhvi, narkomaniyanın yayılması və s. aiddir. Bu vasitələr nüvə silahından daha təsirlidir və insan azaldılma layihəsi üçün bir mexanizm funksiyası daşıyır...**



Əhali artımının qarşısının alınması zərurəti ilə bağlı demək olar ki, bütün ölkələr həmfikirdir. Yəqin ki, bir çoxunuz KİV-lərdən illər ərzində arasıkəsilmədən təkrarlanan və beyinlərə həkk olunan bu fikirləri eşitməmiş olmazsınız. Böyük ehtimalla, bir çoxunuz düşünürsünüz ki, bəşəriyyət olaraq başımıza gələn bir çox təbii fəlakətlərin səbəbi həddən çox insan artımı, onların nəzarətsiz şəkildə resursları istifadə etməsidir. Hətta bir çoxumuz da cəmiyyətdəki problemlərin əsasən çoxuşaqlı ailə sahiblərinin şəhvətindən, onların doğub-törətmək həvəsindən qaynaqlandığını düşünürük. Hətta onları bunun üçün mühakimə belə, edirik. "Saxlaya bilməyəcəyin uşağı niyə dünyaya gətirirsən", - deyə onları ittiham edirik.

Halbuki, məsələ heç də belə deyil. Çünki son illərdə dünya üzrə əhali artımı sürətlə üzüyuxarı yox, üzüaşağı gedir. Yalnız Hindistan istisna olmaqla. Doğrudur, əvvəllər əhali sayına görə Çin irəlidə idi, amma artıq Hindistan onu geridə qoyub. Çoxuşaqlı ailə modeli artıq aktuallığını itirib, inkişaf etmiş ölkələrdə əhali sürətlə yaşlanır və köklü dəyişikliklər əmələ gəlib. Bir sıra inkişaf etmiş ölkələrdə insan ömrü uzanıb, doğum sayı aşağı düşüb, yaşlanan əhalinin yerinə gənc nəsil gəlmir. Bu problem ən çox Avropa və Yaponiya kimi inkişaf etmiş ölkələrdə yaşanmaqdadır.

Amma paradoksaldır ki, inkişaf etmiş ölkələrdəki doğum həddi aşağı düşərkən, az inkişaf etmiş ölkələrdə bu həddin yüksək olması düşüncəsiylə əhalinin artdığını düşünürlər. İnkişaf etmiş ölkələrdə əhali artımı müxtəlif vasitələrlə nəzarət altında saxlanılmağa çalışılır. Bura LGBT-nin təbliği, ailə dəyərlərinin gözdən salınması, məhvi, narkomaniyanın yayılması və s. aiddir. Bu vasitələr nüvə silahından daha təsirlidir və insan azaldılma layihəsi üçün bir mexanizm funksiyası daşıyır.

Planetin ən inkişaf etmiş bölgəsi Avropaya baxaq. 2018-ci ildə Avropanın əhalisi 751 milyon nəfər idi. Statistik göstəricilərə görə, 2024-cü ilin yanvarında Aİ əhalisi 449,2 milyon nəfər olub. 6 ilə təxminən 302 milyon nəfər azalma olub. Pandemiya dövründə - 2020-ci ildə qitə əhalisi 0,5 milyon, 2021-ci ildə isə 0,3 milyon azalıb. Amma o vaxtdan bu ilə qədər nisbi artım müşahidə olunub ki, o da miqrasiyanın hesabına baş verib. Əslində, əhali azalması həmin ölkənin və ya dövlətin gücünün azalmasıdır.

1750-1950-ci illər arasında dünya əhalisi 1 miyarddan 3 milyarda qalxıb. 1950-2000-ci illər arasında dünya əhalis ikiqat artaraq 6 milyard olub. BMT-nin proqnozlarına görə, dünya əhalisi əvvəlki 50 ilin yarısı qədər artacaq. Amma bəzi araşdırmalara görə, 2025-2050-ci illərdə əhali yüzdə on faiz artacaq. Bu o deməkdir ki, doğumların artmasında ləngimələr olacaq. Bundan başqa da proqnozlar var ki, dünya əhalisi 2100-cü ilə yaxın dönəmdə azalacaq. Təxminlərə görə, Braziliya və Cənubi Koreyaya bənzər ölkələrdə 2050-ci ilə qədər əhali artımı dayanacaq, 2100-cü ildən sonra üzüaşağı gedəcək. Konqo və Banqladeş kimi az inkişaf etmiş ölkələrdə artım 2100-cü ilə qədər çəkəcək, amma əvvəlki kimi olmayacaq. Yəni əhali artımı partlayışı baş verməyəcək.

Əhali sayının sabit qalması üçün hər qadın orta hesabla 2,1 uşaq sahibi olmalıdır. BMT-nin göstəricisinə görə, 1970-ci ildə hər qadın başına düşən uşaq sayı 4,5 olub, bu rəqəm 2000-ci ildə 2,7-yə düşüb. 2050-ci illərdə bu rəqəm 2,05 olacaq. BMT-nin başqa proqnozuna görə, hazırda bu rəqəm 1,6-dır. Bu o anlama gəlir ki, dünyada əhali artımı enişə gedir.

Az inkişaf etmiş ölkələrdə hər anaya düşən uşaq 6,6-dan 5.0-a düşüb. 2050-də bu rəqəmin 3.0 olacağı gözlənilir.

1800-cü illərdə doğum səviyyəsi haqda statistika olmasa da, hər qadın başına düşən uşaq sayı 6,5 ilə 8.0 arasında olub. O dövrdə uşaq ölümləri çox olduğuna görə, uşaqların çoxu uşaq ikən ölürdü, amma indiki dövrdə isə uşaq doğrumuna nəzarət olduğuna görə, çox uşaq doğulmur. Həmçinin, 19-cu əsrdə ailələr çoxuşaqlılığa status və zənginlik kimi baxırdılar. Uşaqlar bir növ iş qüvvəsi idi. Çünki o dövrdə istehsal prosesi maşınlar tərəfindən yox, insanlar tərəfindən həyata keçirilirdi. İnsanlar yaşlandığı zaman təqaüdə çıxmırdılar, onların yaşlılığını övladları təmin edirdi. Buna görə, ailələr çox uşaq sahibi olmağa üstünlük verirdi.

Qadınlar da çox uşaq sahibi olmağı tərcih edirdilər. Çünki işləmirdilər, ailələr kişilərin məsuliyyətində idi. Uşaqlar ailələr üçün gəlir qaynağı sayılırdı. Amma texnologiya inkişaf etməyə başlayanda çox uşağın elə bir önəmi qalmadı. Fabriklər və zavodlarda təhsilli işçilər lazım oldu. Uşaqlar təhsil üçün ailələrindən pul almalı oldular, nəinki əvvəllər kiçik yaşlardan işləyib ailələrin dolanışığına kömək edirdilər. Artıq uşaqlar 20 yaş ətrafında hələ universitet təhsili alırlar və bunun üçün evdən pul gedir. Amma həmin uşaq evə pul gətirmir.

1800-cü ilərdə çox uşaq "Allahdan şirin pay" sayılırdısa, dövrümüzdə çox uşaq iqtisadi yük sayılır. İndi övlad yetişdirmək baha başa gəlir. Bu vəziyyətdə ailələr yükdən qurtulmaq, amma eyni zamanda cinsi həzzi yaşamaq, bu zaman da uşaq yükü altında girməməyin yollarını axtarmağa başladılar. Bu gün uşaq sahibi olmaq silə nəticələnir, bu da onların ailə-uşaq sahibi olmasını gecikdirir. Cəmi 100 il əvvəl qızlar və oğlanlar 13-15, ən geci isə 17-18 yaşlarda evlənib ailə sahibi olurdularsa, indi bu rəqəm xeyli geriləyib. 100 ilə əvvəl qadınlar həyatlarının heç olmasa 5-7 ilini uşaq dünyaya gətirmək və tərbiyə etməyə sərf edirdisə, indi bu dönəm çox gec başlayır. Əvvəllər qadınları kişilərə bağlayan faktorlardan biri çoxuşaqlılıqdan irəli gələn iqtisadi amil, yəni dolanışıq məcburiyyəti idi. İndi isə durum fərqlidir. Uşaq doğub-tərbiyə etmək qadının əsas işi və missiyası deyil, onun işlərindən biridir. Zəmanəmizin qadınının karyera qurması, maddi təminat və əmlak sahibi olmaq üçün əmək və zaman sərf etməsi daha ön plandadır.

iqtisadi baxımdan sərfəli deyil, bunu tətikləyən faktor sadəcə nəsli davam etdirmək naminə eqoqarışıq instinkt və övlad sevgisidir. Düzdür, uşaq sayının azalmasıyla paralel, insan ömrü də uzanıb. Amma bu pandemiyaya qədər belə idi. Üstəlik, Billi Qeytsin öndərliyindəki vaksin çılğınlığını, həmçinin onun qarşıdan gəlməsinin proqnozları verilən III dünya müharibəsi ehtimalını nəzərə alsaq, insan ömrünün uzanması faktoru da təsirli olmayacaq. Doğum səviyyəsində artım və insan ömrünün uzanması yavaşladığı zaman əhali artımı dayanacaq.

Yazılanlardan göründüyü kimi, əhalinin artması, yaxud azalması bəzi ölkələrə təsir edir. Əhalisi az olan ölkələrin ordusu və işçi qüvvəsi də kiçik və gücsüz olur. İnkişaf etmiş ölkələrdə insan ömrü uzansa da, qadınlar daha az uşaq sahibi olur və buna paralel təhsil dönəmi də uzanır. Eləcə də təhsilin ömrü uzandığı kimi, statuslu iş həyatına atılmaq üçün təhsil, həm də ali təhsil məcburi hala gəlir. Gənclər əsasən 22 yaşında ali məktəbdən məzun olur, təbii ki, iş həyatına universitetdən sonra başlaya bilirlər. Təhsil müddətinin uzanması gənclərin gec evlənmə-

Bu, həm də ona gətirir ki, qadın iqtisadi baxımdan kişiyə bağlı olmağa məcburiyyət duymur. Əvvəlki qadını evliliyi sürdürməyə məcbur edən faktor dolanışıq idi, amma indi evlilik onlar üçün iqtisadi zərurət, məcburiyyət deyil. İndi evlilik üçün ilk faktor eşq, yəni hisslərdir. Amma hisslər maddiyyatın qarşısında davam gətirə bilmir. Ailə yalnız eşqin üzərində dayanmaqda çətinlik çəkir, iqtisadi məcburiyyət isə evlilik, ailə institutunu daha dayanıqlı edir. Lakin görünən odur ki, proses artıq çoxdan geri dönülməz istiqamətə yönəlib.

Bəs, guya, qarşısıalınmaz əhali artımı trendi yalanının sırınması nəyə xidmət edir? Eləcə də sadalanan faktorlar yetmirmiş kimi, LGBT kimi əxlaqsızlıq meylinin, narkomaniyanın, alkoqolizm kimi pis, zərərli vərdişlərin təbliğatının məqsəd nədir? Əhali artımı nağılı kimə, nəyə xidmət edir?

Bu və digər suallara növbəti yazımızda cavab tapa bilərsiniz. Bizi izləyin.

**Ülviyyə ŞÜKÜROVA**

# "Get, ay batandan sonra gəl"

Yadımdadı, balaca uşaqdım... Bir dəfə şirin çay stəkanıma bolluca duz qatıb qurtumladım... ödüm ağzıma gəldi. O gün, bu gün, - anlayıb əxz elədim ki, axmaq adam öz-özlüyündə təhlükəli deyil, amma o, təşəbbüskar olanda çox ziyanlı olur.



Eldəniz QULİYEV

Bunu niyə xatırladım?

Son zamanlar məmləkətdə hər şey bir-birinə elə qarışıb, elə dolaşıb ki, nə ayranı ayranlıq olub, nə də yağı yağlıq. Nə yaxşılıq məlumdu, nə də yamanlıq... Haqq-ədalət özbaşınılıqla, halallıq haramla, məhəbbət nifrətlə qol-boyun olub toxunub-hörülüblər...

Bir sözlə, həyatımız əcaib-qəraib bir həftəbecər burulğanında fırlanır...

Fırlanır və ürək bulandırır...

Şəxsən mən, "Tarixi-Nadir"i yarıyacan oxumuş, hətta konspektləşdirmiş bir adamam. Amma nə illah eləyirəm, bu qarmaqarışıqlıqdan baş çıxara bilmirəm ki, bilmirəm...

Məsələn, heç cürə kəsdirə bilmirəm ki, müxalifət dediyimiz bu "nəmənələr" iqtidar adlandırılan "zadlar"dan nə istəyirlər? Niyə qoymurlar, kişilər rahatca oturub xımır-xımır öz çaqqa-çuqlarıyla məşğul olsunlar?..

Kor tutduğunu buraxmayan kimi, yapışıblar saqqalı ağarmış iqtidarın yaxasından ki, nə var, nə var, - "İyirmi beş-otuz ildi şellənib oturmusuz yumşaq-yumşaq kreslolarda, qır-saqqız kimi yapışmısız qəşəng-qəşəng vəzifələrdən, - əlinizdən gö... gövdənizdən də bir iş gəlmir!.."

Əcəb işdi, vallah! Kimsə qayıdıb məndən, yəni həmin o irad sahiblərindən soruşsa ki: "Ayə, axı tarixin arşınıyla 30 il nə matah bir vaxtdır və bircə çimdiklik bu zaman ərzində neynəmək olardı ki, binəvalar eləməyiblər?.. Bəyəm bilmirsiz, ilk 70 il həmişə çox çətin və məşəqqətli keçir; buna birtəhər dözmək, səbr eləmək, (hətta min dəfə şükür eləmək) lazım deyilmi?.."

Belə solaxay suallara cavab varmı, əcaba? Bilmirəm...

Bircə onu bilirəm ki, sözdə "demokratiya", "Hürriyyət" deməyi mənim nənəm də bacarır! Hünəri olan, o mənsəb sahibləri kimi, sözü deyər, amma dediyinin əksini eləyər. Özü də bunu elə məharətlə, elə üsulluca eləyər ki, nəticədə, hamı məmnun və şad-xürrəm qalar. Yəni hər şeyin pis olmasına rəğmən, sözü elə ifadə etmək, elə "yedirtmək" (özü də, təkrar-təkrar) olar ki, camaat hər şeyin və hər zadın əladan da əla olduğuna inansın... Bəli, ən vacib şərt külli-məmləkət əhlinin qulağını yağır eləyib, onu yalana, "gopa" inandırmaqdı.

O ki qaldı "Haqq nazilər, - üzülməz!" və ya "Ayrana doyuran demədim, mən Dədə Qorqud"- filanbeşməkan nəsihətlərə... bunlar nağıllar aləminə səyahətdən başqa bir şey deyil...

Sözümün "məmmədqulusu" budu ki, ağappaq qatığı qapqara kimi qəbul etdirmək...adamdan əsl ustalıq, "master-klas"-lıq tələb edir. Etiraf eləməliyik ki, saqqalı ağarmışlar bunu bacarır! Çünki onların dilləriylə bərabər, dilçəkləri də var!

Yox, əgər kimlərsə bunu inkar edir, yaxud belə "fokus-mokusları" bacarmırsa, onda kirimişcə otursun, oturduğu yerində; gəzmək istəyəndə də, siyasətdən, ən azı 25-30 kilometr qıraqda hərlənsin... Əksinə, - ağlı, fəhmi, fərasəti çatırsa... baxsın, müşahidə aparsın, dərk eləsin, ən əsası, "gözünə su versin" ki, cənabi başbilənlər bu mütəqəlqəl məsələləri necə həll edirlər? Necə edir, hansı fənd işlədirlər ki, hər adamın, yəni hər bir əlidöyənəkli vətəndaşın başı üzərində iki əlidəyənəkli saxlayır, üstəlik, ona allı-güllü don da geyindirə bilirlər?.. Nəticədə nə olur? Əlbəttə, bütün dünyaya proletar... demokratlarına mesajlar verilir ki, "heç o yan-bu yanı yoxdu, demokratiyanın xalisi də, ədalətin azadlığın "nastoyaşi" də ancaq və ancaq bizdədi, vsyo!" Qıraqdan baxanlar da, uzaqdan-yaxından eşidənlər də, çar-naçar, bu mesajlara inanmaq zorunda qalır... Və elə qənaətə gəlirlər ki, deyilənlər həqiqətən, düppədüzdü, - lap dəvənin boynu kimi!..

Səd heyif ki, əsas məsələ, necə olmaq yox, necə qəbul olunmaqdı! Neynəmək olar, hər igidin bir eybi olduğu kimi, dünyanın da eybi belə paradokslardı...

"Bəli, mənim iqtidarım məni qoruyur və mən bununla fəxr edirəm!" - məncə, naftalin "ətiri" verən "qəttəzə" deputatların bu sürüşkən sitatını, yüngülvari yarınmaq kimi də ("yalmanmaq" yox ha!) qəbul etmək olar...

Razılaşaq ki, "buğda göstərib, arpa satmaq" istedadı hər məmləkətə, eləcə də, hər hökumətə nəsib olan "xoşbəxtlik" deyil. Bu sarıdan bizim bəxtimiz gətirib. Və bunu bilə-bilə, nədən hər işə qulp qoyuruq, niyə hər şeyə ağız büzürük - anlamıram!? Yekə-yekə məmurları görəndə üzünə irişirik, dalda-bacada isə "ağ yuyub, qara səririk"... Haçalı yanaşma budur də; yəni ikili standartların buynuzu olmur ki!..

Bayaq dedim ki, mən "Tarixi-Nadir"in ikinci hissəsini hələ oxuyub itmamə yetirməmişəm, hərçənd, bir çox şeyləri yaxşı bilirəm. Adam gərək dalınca danışandan yox, üzünə tərifləyəndən qorxsun...



> Bu məqamda "bəy tərifinə" keçid almaq zorundayam; yəni "daş atıb başını tutan" və çox vaxt sözüylə əməli üst-üstə düşməyən bəzi bəy əfəndilərə bəzi-bəzi sözlər deməliyəm... Bir qədər maraqlı, bir qədər də müəmmalıdı: Ki, görən, niyə onların çoxusu həm üzə tərifləyənşik, həm də dalca danışanşikdilər? Bu bir yana. Kimsə ağız baham eləyib deyə bilərmi ki, sözü maddiləşdirib mişar daşına çevirmək və ondan ev tikmək olarmı?..

Bu məqamda "bəy tərifinə" keçid almaq zorundayam; yəni "daş atıb başını tutan" və çox vaxt sözüylə əməli üst-üstə düşməyən bəzi bəy əfəndilərə bəzi-bəzi sözlər deməliyəm... Bir qədər maraqlı, bir qədər də müəmmalıdı: Ki, görən, niyə onların çoxusu həm üzə tərifləyənşik, həm də dalca danışanşikdilər? Bu bir yana. Kimsə ağız baham eləyib deyə bilərmi ki, sözü maddiləşdirib mişar daşına çevirmək və ondan ev tikmək olarmı? (düzdü, sözlə ev yıxmaq olar və bu, mütamadi rastlaşdığımız iyrənc bir bəladı, ancaq hazırda bu məsələyə başqa tərəfdən, yəni tikinti-inşaat kontekstindən yanaşıram). Ancaq və ancaq sözdən, ifadədən istifadə edib də mövcud bir sistemi dəyişmək, mövcud bir rejimi yıxıb tərs-məssəb çevirmək mümkündümü?

Məncə yox.

Qəşəng və fantan vuran emosiyalı çıxışlarla, sığallı-tikanlı, ütülü-ütüsüz, ağıllı-ağılsız və s. sözlərlə Fatıya tuman tikmək zamanı çoxdan keçib... Hər hansı bir sözü usanmadan, dalbadal, təkrar-təkrar deyəndə (hətta o söz şirin, qiymətli və müqəddəs olsa belə), tədricən öz mənasını itirib quruca səsə çevrilir...

Hə, indi keçək sarı simə...

Çox söz deyirsiz, nə bilim, vallah, - birdi, ikidi, ondu, on beşdi məgər?.. Misal üçün:

Deyirsiz: - Balıq başdan iylənər.

Deyirəm: - Noolsun, quyruğunnan ki soyular!..

Deyirsiz: - Bir tərəfdən cərimələr, bir tərəfdən qiymətlər, bir tərəfdən də təpəgöz məmurlar millətin anasını ağladır, dərisini soyur.

Deyirəm: - Noolsun? "Günəş qürub edəndə, əlbəttə ki, saralar!" O boyda Nəsimidən ibrət götürə bilmirsiz?!.

Deyirsiz: - Quru yollar bağlı, ağzımız bağlı, gözümüz bağlı, bəxtimiz-taleyimiz bağlı... Bir yannan da Tarif Şurası, vergi, gömrük, məmurları, işıq, qaz, su işçiləri, sosial təminat nazirliyinin bürokratları, paqonlu-paqonsuz DİN əməkdaşları hücum çəkib, eynən Ərəbzəngi kimi, camaatın nəfəsini, ruzisini, yolyolağasını kəsir, normal adam kimi yaşamağa qoymurlar bizi...

Deyirəm: - Pah! Noolsun ki? İstəyirsiz, Əzrayıl kimi ömrünüzü kəsib hamınızı "optovoy"şəkildə hoppalara aparsın?..

Deyirsiz: - İqtidar yalan-yalan, şirin-şirin vədlər verir, amma "halva-halva" deməklə də ağız şirin olmur...Allah baisin başını qoyub ayağına daş salmasın!

Deyirəm: - Ehtiyat təkcə igidin yaraşığı sayılmır, naşükür olmayın. Bax, belə qarğışlarla axırı özünüzə ehsan halvası çaldıracaqsız!..Ehtiyatlı olun: "Əl vurma-öldürər!"

Deyirsiz: - Bu hakimiyyət rüşvətə, korrupsiyaya qurşanıb, məzlum xalqın dərd-sərini vecinə almır, yerlibazlıq, pulbazlıq, qohumbazlıq eləyir.

Deyirəm: - Bə neynəsin? Yatan öküzün başına duran öküz "o məsələ" eləməlidi da bə. Bir də, deyirsiz, bizimkilər də keçmiş ABŞ prezidenti kimi, "kiş-kişlər" olsun, başqa-başqa bazlıqlar eləsin?..

Deyirsiz: - Nə qədər həmvətənimiz urusiyetdə, qəribçilikdə, orda-burda sərgərdan qalıb... Vətənə qayıdanda da acınnan ölürlər... Bunu Allah götürərmi bəs?

Deyirəm: - Ay "tupoybaşkalar", bə bilmirsiz ki, gəzməyə qərib ölkə, ölməyə vətən yaxşıdı?..

Deyirsiz: - Azərbaycanın geosiyası mövqeyinnən özünnən savayı bütün ölkələr istifadə edir. Bir qəpik faydasını görmürük... Andır "Formula -1" nəmənə şeydisə...formulası cəhənnəm, amma onun "1" rəqəmi əsil paza cevrilib... millətin gündəyməzini axtarır!..

Deyirəm: - Belə deməyin, ağzınız əyilər. Bizim xalq ta qədimnən böyük-kiçik yeri bilən, böyük qardaşı başı üstündə saxlayan, qəribə-yada xətir-hörmət bəsləyən, qonaqpərvər və son tikəsini də qonaq-qaraya yedirdən ulu bir xalq olub...

Deyirsiz: - Qarabağ bizimdi, ancaq...

Deyirəm: - Hə, hə, əlbəttə, sizindi...

Deyirsiz: - Erməni bizim düşmənimizdi...

Deyirəm: - Zato, urus bizim dostumuzdu.

Deyirsiz: - Prezident öz oğlunu prezident eləmək istəyir...

Deyirəm: - Bala baldan şirindi!..

Deyirsiz: - Sözünnən belə çıxır ki, bu iqtidarın səhvi-zadı yoxdu, süddən çıxmış ağ qaşıqdı, həə?

Deyirəm: - Var! Səhvi var. Gərək, ədalətsiz hakimiyyəti ədalətlə dəyişmək üsullarını arayıb-axtarmaq yerinə, yalannan çığır-bağır salanları bittə-bittə dənləyəydi. Və onların yazılı-yazısız sözlərindəki bütün nida işarələrini dubinkaya çevirib... "turşulu aş" qonaqlığı verəydi!..

Deyirsiz: - Hələ ümidimizi itirməmişik...ən axırıncı ölən şey ümiddi...

Deyirəm: - Ümidinizi qoz eləyin.

Deyirsiz: - Ölkə qanunlarla yox, qaydalarla idarə olunur. Avto-pilot olmasaydı çoxdan çəzmişdik...Belə ölkənin prezidenti istefa verməlidi!

Deyirəm: - Get, ay batannan sonra gəl!

Deyirsiz: - Bahh...

Deyirəm: - atonnan!

Deyirsiz: - bə...ə... be... belə getsə, acınnan ot yeyəcəyik, ot!..

Deyirəm: - Gördünüz, vot!

İndi isə, gəlin, əyri oturaq, düz danışaq. Yəqin hamıya maraqlıdı ki, görəsən, belə iqtidarın və bu cürə müxalifətin son akkordları nətər olacaq?..

Bu suala cavab vermək üçün kiçik bir haşiyə çıxmalıyam və deməliyəm ki, hər şeyin bir nizam-tərəzisi və məntiqi sonluğu var, olmalıdı, olur da!..

Yəni bacarıq, qabiliyyət, savad, ağıl, istedad və sairə sayəsində qazanılmayan GÜC axırda iki finalla nəticələnir: 1 - faciə ilə, 2 - komediya ilə!

Yox, əgər bu iki finalın heç hansı biriylə bitmirsə, onda mütləq hər ikisiylə birgə sona catmalıdı, yəni - tragikomediya ilə!

# Kompüter arxasında çox oturanları nə gözləyir?

## Fizioterapevt Mir Elvin Əliyev: "Davamlı oturmaq təkcə fiziki sağlamlığa deyil, ruh sağlamlığına da mənfi təsir göstərir"

"Uzun müddət oturmaq ürək xəstəliyi riskini ciddi şəkildə artırır. Araşdırmalar göstərir ki, gündə 8 saatdan çox oturan insanlarda koroner ürək xəstəliyi riski 20% artır. Oturmaq qan axınını yavaşladır və damar sağlamlığına mənfi təsir göstərir. Bu, hipertoniya, yüksək xolesterin və ateroskleroz kimi problemlərə gətirib çıxarır"





**Kompüter həyatımızın ayrılmaz hissəsinə çevrilib. Təəssüf ki, kompüterin sağlamlığımıza çox mənfi təsirləri var. Saatlarla kompüter qarşısında oturmaq və ondan uzun müddət istifadə etmək müxtəlif xəstəliklərə yol aça bilər. Mütəxəssislərin qənaətincə, uzun müddət oturma "ölü omba" sindromuna yol açır. Metabolizma 30 dəqiqəlik oturma müddətindən sonra 50 faiz daha yavaş işləməyə başlayır. Buna görə də çox oturmaq yağlanmaya və çəki artmasına səbəb ola bilər.**

Kompüter arxasında düzgün oturmamağın yaratdığı fəsadlarla bağlı "Hürriyyət" qəzetinin redaksiyasına danışan fizioterapevt Mir Elvin Əliyev bildirir ki, çox oturmağın və stol arxasında işləməyin verdiyi zərərlər müasir iş həyatının ən böyük problemlərindən birinə çevrilib:

"Uzun müddət masa arxasında oturmaq duruş pozğunluqlarına səbəb olur. Xüsusilə pis oturma bədən duruşuna mənfi təsir göstərir. Zamanla donqar (hiperkifoz) və boyun düzləşməsi kimi duruş pozğunluqları yarana bilər. Bu, əzələ balansının pozulmasını və bel ağrısını əmələ gətirir. Xüsusilə kompüter ekranının yanlış hündürlüyü və klaviaturanın yanlış yerləşdirilməsi boyun, çiyin və kürəkdə gərginliyə səbəb ola bilər".

Fizioterapevt deyir ki, uzun müddət hərəkətsiz qalmağın əzələ və oynaqlara da təsiri var: "Uzun müddət hərəkətsiz qalmaq əzələlərdə zəiflik, oynaqlarda sərtlik meydana gətirir. Omba və ayaq əzələləri kifayət qədər məşq edilmədikdə, əzələlərin qısalması və omba əzələlərində zəiflik əmələ gəlir. Bundan əlavə, oynaqlarda artrit riski artır. Hərəkətsizlik qan dövranını ləngidə bilər, varikoz damarları və qan laxtalanması riskini artırır.

Uzun müddət hərəkətsiz oturmaq ayaqlarda qan yığılmasına da səbəb ola bilər ki, bu da dərin damar trombozu kimi ciddi sağlamlıq problemlərinə səbəb olur. Uzun müddət oturmaq ürək xəstəliyi riskini ciddi şəkildə artırır. Araşdırmalar göstərir ki, gündə 8 saatdan çox oturan insanlarda koroner ürək xəstəliyi riski 20% artır. Oturmaq qan axınını yavaşladır və damar sağlamlığına mənfi təsir göstərir. Bu, hipertoniya, yüksək xolesterin və ateroskleroz kimi problemlərə gətirib çıxarır".

Fizioterapevt qeyd edir ki, davamlı oturmaq təkcə fiziki sağlamlığa deyil, ruh sağlamlığına da mənfi təsir göstərir. Hərəkət çatışmazlığı beynin fəaliyyətini ləngidir, konsentrasiya itkisinə və aşağı enerjiyə səbəb olur:

"Bundan əlavə, oturmanın depressiya və narahatlıq riskini artırdığı müşahidə edilmişdir. Fiziki fəaliyyət stress hormonlarını tənzimləyir və psixi sağlamlığı dəstəkləyən xoşbəxtlik hormonu olan endorfinlərin ifrazını stimullaşdırır.

İş masasında oturmaq qarın əzələlərinin kifayət qədər aktiv şəkildə istifadə edilməməsi ilə nəticələnir. Qarın əzələlərinin zəifləməsi belin sabitliyini azaldaraq onurğanın sağlamlığını təhdid edir. Eyni zamanda, əyilmiş vəziyyətdə oturmaq ağciyər tutumunu məhdudlaşdırır və diafraqmanın düzgün işləməsinə mane olur ki, bu da dayaz və qeyri-adekvat nəfəs almağa şərait yaradır. Uzun müddət ekrana baxmaq göz əzələlərinin həddindən artıq yorulmasına və rəqəmsal göz yorğunluğu (kompüter görmə sindromu) kimi tanınan bir vəziyyətə gətirib çıxarır. Bu, baş ağrısı, bulanıq görmə, quru gözlər və boyun ağrısı kimi simptomlarla özünü göstərə bilər. 20-20-20 qaydası (hər 20 dəqiqədən bir, 20 saniyə ərzində 20 fut uzaqlıqdakı bir şeyə baxmaq) bu problemləri aradan qaldırmağa kömək edə bilər".

Həkim vurğulayır ki, hər 30-60 dəqiqədən bir qalxmaq və qısa gəzintilər əzələləri aktiv saxlayır: "Sadə gərmə hərəkətləri ilə qan dövranını artıra bilərsiniz. Kreslonun bel dayağı olmalıdır və monitor göz səviyyəsində yerləşdirilməlidir. Klaviatura və siçan alçatan yerdə, qollar və biləklər isə neytral vəziyyətdə olmalıdır".

**Aynurə İSMAYIL**

# Payız depressiyası nədir, qarşısını necə almaq olar?

## Psixoloq Vəfa Rəşidova: "Yay fəsilində istirahətdə olmayan insanlar daha çox depressiyaya meylli olur"



**Payız fəslində insanlar daha çox depressiyaya düşür. Ortalama hesabla götürsək, hər 10 nəfərdən biri depressiyaya qapanır, müxtəlif psixoloji hallar yaşayır. Təbiətdə baş verən fəsil dəyişikliyi, günəş işığının azalması, havaların soyuması, arxada qalan yay xatirələri, romantik duyğular qəmgin ovqat yaradır, əhval-ruhiyyənin aşağı düşməsinə səbəb olur. İlin bu fəsli bəziləri üçün depressiya, tənhalıq və həvəsin azalması kimi hisslər gətirir. Payız depressiyası həmin hisslərin təsiri nəticəsində yaranır.**

Psixoloq Vəfa Rəşidova "Hürriyyət" qəzetinin redaksiyasına açıqlamasında bildirdi ki, həqiqətən də payız depressiyası mövcuddur: "Depressiyaya meylli olan insanlar, xüsusilə də payız depressiyasından əziyyət çəkirlər. İlk növbədə depressiyanı anlamaq lazımdır. Depressiya nədir? Genetik də ola bilər. Ailədə, ailə üzvlərində əgər depressiya müşahidə olunubsa, təbii ki, övladlarda, uşaqlarda da depressiyaya meyllilik ola bilər. Bəzi depressiyalar "qazanılmış" depressiyadır. Məsələn, yaşantılar, stress, narahatçılıq, ayrılıq, ölüm hadisəsi, intihara meyllilik və s. bu kimi depressiyalar "qazanılmış" depressiyalardır. Hansə ki, insanlar başqaları ilə özlərini müqayisə edirlər. İştahsızlıq yaranır. Özünə qapanma, ünsiyyət problemi kimi problemlər yaşayırlar. Serotonin hormonu azlığından depressiya özünü kəskin şəkildə göstərə bilər".

Psixoloq qeyd edir ki, daha çox yay fəsilində istirahətdə olmayan insanlar depressiyaya meylli olur: "Yayda günəşin özündə serotonin maddəsi olur. İnsan dincəldikcə, günəşin altında zaman keçirdikcə və yaxud dənizdə, qumda olduqda bədən D vitaminini bərpa edir. Yəni D vitaminini qəbul edərək, qış üçün serotonin maddəsini azuqə kimi yığır. Bunu etməyən insanlar təbii ki, depressiyaya məruz qalır. Payızda da həmin depressiya özünü göstərməyə başlayır. Payız aylarında xüsusilə hava tutqun olur, günəş olmur, serotonin maddəsi də aşağı olan insanlar, dediyimiz kimi, yağış yağan kimi depressiyaya düşürlər. Ona görə də yay fəslində insan bədənini depolamalıdır. İnsan yayda istirahət etməli, günəşdə çox olmalıdır.

Təəssüf ki, Azərbaycanda bunu edən insanlar çox azdır. Ona görə də payız depressiyası bizim insanlarda özünü daha çox göstərir. Əlbəttə, günəş az olan ölkələr də var. Məsələn, Niderlandda, eyni zamanda soyuq ölkələrdə depressiv insanlar daha çox olur".

Vəfa Rəşidova vurğulayır ki, insan depressiyaya meyllidirsə, mütləq şəkildə bunun qarşısı alınmalıdır: "Psixoloji dəstək almalıdır. Motivasiyasını yüksəltməlidir. Ya da əlindən gələn qədər yay aylarında özünü hazırlamalıdır ki, payız fəslində payız depressiyasının ağuşuna düşməsin. İlk növbədə insan özünü tanımalı, özünü motivasiya etməli və öz üzərində çalışmalıdır".

**Aynurə İSMAYIL**

Müsahibimiz Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Xüsusilə mühüm işlər üzrə baş müstəntiqi, MTN Akademiyasının keçmiş fakültə rəisi Taryel Əliyevdir. Onunla müsahibəmizdə siyasi gündəmi müzakirə etdik.

# “Azərbaycana ən böyük tə

## Taryel Əliyev: “Lakin bu təhlükə oradakı Qərbpərəst yox, tamamilə başqa qüvvələrdir”

***- Taryel müəllim, sizi oxucularımıza necə təqdim edək?***

- Mənim özüm haqqında pafoslu ifadələr işlətmək xasiyyətim yoxdur. Siz məni sadəcə belə təqdim edin ki, əslən Borçalıdanam, 1992-ci ildə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişəm, ehtiyatda olan polkovnikəm.

O ki qaldı oxucuların məni necə qəbul etməsinə, bu artıq bizim söhbətimizdən, verilən suallara nə dərəcədə peşəkar, obyektiv və ədalətli cavab verməyimdən asılı olacaqdır.

***- Siz uzun müddət təhlükəsizlik orqanlarında çalışmısınız. Bu baxımdan, ilk olaraq quru sərhədlərimizin hansı səbəbdən bağlı qalması haqda fikirlərinizi bilmək istərdik...***

- Məlum olduğu kimi, Azərbaycanın quru sərhədləri 2020-ci ilin mart ayında “Covid” pandemiyasına görə bağlanmışdır. Ümumdünya Səhiyyə Təşkilatının koronavirus pandemiyasının başa çatmasına dair rəsmi mövqeyinə baxmayaraq, Azərbaycanın quru sərhədləri hələ də bağlıdır. İndiyə qədər sosial şəbəkələrdə və mətbuatda bunun səbəbləri barədə fərqli fikirlər söylənilmişdir. Burada həm Azərbaycan Hava Yollarının (AZAL) inhisarçılığı və “pul qazanması” ilə bağlı məsələlər, həm də təhlükəsizlik məsələləri qeyd olunurdu. Lakin Azərbaycan Respublikasının Prezidenti, möhtərəm İlham Əliyev son çıxışlarında quru sərhədlərin məhz təhlükəsizlik məsələlərinə görə bağlı olduğunu bəyan etmişdir...

***- Sizcə, burda daha çox hansı ölkədən gələ biləcək təhlükədən söhbət gedir?***

- Təbii ki, dövlət başçısı təhlükənin mənbələri barədə açıq fikirlər bildirməmişdir və bu, tamamilə doğru yanaşmadır. Bununla bərabər, çoxsaylı siyasətçilər, politoloqlar, geopolitiklər də təhlükənin hardan gəlməsi barədə keçən vaxt ərzində olduqca maraqlı fikirlər bildirmişdir. Bəziləri bu təhlükəni Rusiya-Ukrayna müharibəsi, bəziləri İran-İsrail arasında münasibətlərin gərginləşməsi, bəziləri Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmaması ilə əlaqələndirmişlər. Hətta yaxın günlərdə adını unutduğum siyasi şərhçilərdən biri belə fikir də səsləndirdi ki, Gürcüstanda Qərbyönümlü qüvvələr mövcuddur və təhlükə məhz Qərbyönümlü qüvvələrdən gəlir.



Sərhədlərin açılmasının Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmaması ilə əlaqələndirilməsi isə heç bir real vəziyyətə əsaslanmır. Belə ki, 1994-cü ildə atəşkəs əldə olunandan sonra, hətta aktiv döyüş əməliyyatlarının aparıldığı dövrdə Azərbaycanın quru sərhədləri bağlı deyildi. Baxmayaraq ki, bu müddət ərzində həqiqətən də Ermənistan tərəfindən real təhlükə mövcud idi...

Lakin mən bu fikirlərin heç biri ilə tam razı deyiləm. Rusiya-Ukrayna müharibəsi, döyüş əməliyyatları Azərbaycandan çox uzaqda həyata keçirilir. Eyni zamanda, nə Rusiya, nə də Ukrayna quru sərhədlərini bağlı saxlamır. O cümlədən, həmin döyüş ərazilərinə bizdən daha yaxın olan digər dövlətlərin də quru sərhədləri açıqdır. İsrail və İran arasında gərginlik həmişə olub, zaman-zaman aktiv fazaya keçir və zaman-zaman sakitləşir. Odur ki, Azərbaycanın quru sərhədlərinin bağlı qalmasının bu münaqişələrlə heç bir əlaqəsi yoxdur.

Sərhədlərin açılmasının Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmaması ilə əlaqələndirilməsi isə heç bir real vəziyyətə əsaslanmır. Belə ki, 1994-cü ildə atəşkəs əldə olunandan sonra, hətta aktiv döyüş əməliyyatlarının aparıldığı dövrdə Azərbaycanın quru sərhədləri bağlı deyildi. Baxmayaraq ki, bu müddət ərzində həqiqətən də Ermənistan tərəfindən real təhlükə mövcud idi. Lakin 2020-ci ildə Müzəffər Ali baş komandan İlham Əliyevin rəhbərliyi, şanlı ordumuzun şücaəti sayəsində 44 günlük müharibədə və sonrakı antiterror əməliyyatları zamanı Ermənistan tərəfindən gələn təhlükə tamamilə aradan qaldırılmışdır. Bu baxımdan, hazırda Ermənistan silahlı qüvvələrinin tərkibində bəzi xarici dövlətlərə bağlı olan qrupların ara-sıra atəşkəsi pozmasını istisna etsək, şəxsən mən Ermənistandan Azərbaycana qarşı heç bir təhlükə görmürəm...

***- O halda bu təhlükə hardan gələ bilər?***

- Bayaqkı suala cavabda bəzi şərhçilərin təhlükənin Gürcüstandakı Qərbmeylli qüvvələrdən gəldiyi haqda fikir söylədiyini xatırlatdım. Mənim fikrimcə, quru sərhədlərinin bağlı qalmasına səbəb olan təhlükə məhz Gürcüstan ərazisindədir. Lakin bu təhlükə oradakı Qərbpərəst qüvvələr yox, tamamilə başqa qüvvələrdir. Mən hələ milli təhlükəsizlik orqanlarında işlədiyim dövrdə bizim cənub qonşumuz İran İslam Respublikasının Azərbaycana qarşı açıq və gizli fəaliyyətinin müəyyən detalları ilə tanış olmuşam. Həm o vaxt, həm də indi molla rejiminin Azərbaycana qarşı həyata keçirdiyi fəaliyyətin kökündə dini bağlılıq və şiə təriqətçiliyi xüsusi olaraq qabardılırdı. Lakin Azərbaycan Respublikasının xüsusi xidmət orqanları keçmişdə olduğu kimi, indi də Azərbaycan ərazisində bu cür meyllərə qarşı çox böyük peşəkarlıqla mübarizə aparmış və onların qarşısını almağı bacarmışdır. Eyni sözləri Gürcüstan barədə söyləmək olmaz. Gürcüstan dövləti və Gürcüstan hüquq-mühafizə orqanları bu məsələyə Azərbaycandakı qədər həssas münasibət göstərməmişdir. Nəticədə Gürcüstanda, xüsusilə şiə təriqətinə məxsus olan insanlar arasında İran İslam Respublikasının təsiri hədsiz dərəcədə artmışdır.

***- Belə çıxır ki, İran rejiminin Borçalıdakı fəaliyyəti Gürcüstan hakimiyyətinin maraqlarına da cavab verir...***

- Mən belə bir iddia irəli sürmək istəməzdim. Görünür, bu təhlükə birbaşa Gürcüstanın özünə yönəlmədiyi üçün onlar məsələyə dırnaqarası baxmışlar. Eyni zamanda, Azərbaycanın xaricdə yaşayan azərbaycanlılarla əlaqəli işləri görməli olan orqanları və rəhbər şəxsləri uzun illər Gürcüstan azərbaycanlılarına kifayət qədər diqqət ayırmamışlar. Özlüyündə bu, geniş söhbətin mövzusudur. Bu vəziyyətdən istifadə edən İran rejimi dini mədrəsələrdə təhsil almaq, maddi yardımlar göstərmək, biznes fəaliyyətinə dəstək vermək və s. adlarla özlərinə müəyyən qədər tərəfdar toplaya bilmişlər. İş hətta o yerə gəlib çatmışdır ki, uşaqlıqdan tanıdığımız və hörmət bəslədiyimiz, müəyyən dövlət qurumlarında çalışmış şəxslər də məscidlərdə sinə vurmaqla məşğuldur. Bununla yanaşı, molla rejimi Azərbaycanda etmək istədiyi, lakin nail ola bilmədiyi digər bir məsələyə də orada nail olmuşdur - Borçalıda və Gürcüstanın digər ərazilərində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı geniş şəbəkələr yaratmış və onlar hazırda da fəaliyyətdədir. Mən hesab edirəm ki, quru sərhədlərin açılmasına mane olan və təhlükəsizliklə bağlı deyilənlər məhz İran rejiminin təsiri altına düşmüş Gürcüstan vətəndaşlarıdır.

***- Təhlükəsizlik əməkdaşı kimi sizin fikrinizi bilmək istərdik, bu adamlar Azərbaycana hansı təhlükəni yarada bilərlər?***

- Məlum olduğu kimi, Azərbaycana həm hava, həm də quru yolu ilə giriş-çıxış kifayət qədər nəzarət altındadır. Yəni sərhədi keçən hər hansı şəxsin silah, partlayıcı maddə və bu kimi təhlükəli əşyalar keçirməsi mümkün deyil. Quru sərhədlərin bağlı olması Azərbaycana zərər vura biləcək şəxslərin kütləvi şəkildə gəlməsinin qarşısını alır. Yəni Azərbaycana düşmən olan qüvvələrin təhlükəsizliyimizə zərər verə biləcək addımları kütləvi tədbirlər vasitəsilə mümkün ola bilərdi.

***- Bir halda ki, söhbət ölkəmizə silah-sursat keçirilməsi ilə bağlı narahatçılıqdan getmir, o zaman həmin təhlükəli şəxslər hava yolu ilə gələ bilməzlər?***

- Şübhəsiz ki, hava yolu ilə də ölkəmizə Azərbaycana dost olmayan şəxslərin gəlişi mümkündür. Lakin bu zaman quru yolla olduğu qədər kütləvilik əldə etmək mümkün deyil. Hava yolu ilə gələn belə azsaylı şəxsləri isə hüquq mühafizə orqanları ifşa və cinayət məsuliyyətinə cəlb etməkdə çətinlik çəkmirlər.

# hlükə Gürcüstan ərazisindədir"

***- Hesab edirsiniz ki, AZAL-ın bilet qiymətlərinin baha olması da bu kütləviliyin qarşısını almaq üçündür?***

- AZAL-ın biletlərinin baha olması barədə fikirlər var. Lakin bəzi hallarda bu fikirlər sadəcə söz xatiri üçün deyilir. Əgər səyahəti əvvəlcədən planlaşdırıb, biletlər əldə olunarsa, AZAL-ın biletləri o qədər də baha sayılmaz. Bununla yanaşı, Azərbaycan Hava Yolları ölkəmizdə sərnişin daşınması ilə məşğul olan yeganə şirkətdir. Bu da özlüyündə inhisarçılığın göstəricisidir və konkret situasiyalarda biletlərin baha olmasına gətirib çıxarır. Eyni zamanda qeyd etmək istəyirəm ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dediyi kimi, Azərbaycanın daxilində təhlükəsizliyə heç bir təhdid yoxdur. Yəni bu məntiqdən çıxış etsək, demək, Azərbaycan Respublikasının vətəndaşlarından ölkəmizdə təhlükəsizliyə təhdid yoxdur. Ona görə, vətəndaşların müəyyən kateqoriyası üçün (məsələn, əslən Borçalıdan olanlar) quru sərhədlərin açılmasını və quru sərhədlər açılana qədər Azərbaycan Respublikası vətəndaşlarının həmsərhəd dövlətlərə xarici səfərləri zamanı təyyarə biletlərinə güzəştlərin tətbiq edilməsini məqsədəuyğun hesab edirəm. Dövlətin öz təhlükəsizliyini təmin etməsi üçün lazımi tədbirlər görməsi çox anlaşılandır, lakin bunun vətəndaşların əlavə xərcə düşməsi hesabına edilməsini düzgün saymıram.

***- Təhlükəsizlik məsələsindən söhbət düşmüşkən, bu gün, xüsusilə parlament seçkiləri ərəfəsində Gürcüstanda da təhlükəsizliklə bağlı ciddi narahatçılıqlar var. Siz burdakı prosesləri necə görürsünüz?***

- Ümumiyyətlə, seçki ciddi bir siyasi prosedurdur. Seçki ərəfəsində müxtəlif qüvvələrin aktivləşməsi kifayət qədər realdır. Sözsüz ki, regionda marağı olan bəzi qüvvələr var. Daha doğrusu, iki əsas qüvvə var. Bunun biri Rusiya, digəri isə Qərb və ABŞ-dır. Mən Borçalı əsilli bir şəxs kimi, Gürcüstanda hər iki qüvvənin fəaliyyətinin əyani şahidiyəm. Mixail Saakaşvilinin Qərb dəyərlərini rəhbər tutaraq hakimiyyətə gəlməsi və hakimiyyətdə olduğu 8 il ərzində Gürcüstanda aparılan islahatlar və ölkənin inkişafı danılmazdır. Qısa müddət ərzində korrupsiya və rüşvətxorluğa qarşı amansız mübarizə aparıldı, demokratiyaya doğru vacib addımlar atıldı, insan haqlarının vəziyyəti xeyli yaxşılaşdırıldı. Lakin onun da idarəçiliyində müəyyən səhvlər mövcud idi. Sonrakı dövrdə Rusiyayönlü qüvvələr Saakaşvilinin həmin səhvlərindən məharətlə istifadə edərək, hakimiyyətə gələ bildilər. Hakimiyyətlərinin ilk dövrlərində Qərb dəyərlərinə sadiq olacaqlarını vurğulasalar da, get-gedə həmin yoldan uzaqlaşmanın şahidi oluruq. Əlbəttə, seçim Gürcüstan xalqınındır. Lakin hazırda Rusiyanın Gürcüstanda aktivliyi daha çox hiss olunur və əldən verdikləri mövqeləri geri qaytarmağa çalışırlar. Hətta buna da xeyli dərəcədə nail olublar. Gürcüstanın ərazi bütövlüyünün bərpa olunacağı, Abxaziya və Cənubi Osetiyanın Gürcüstana qaytarılacağı kimi vədlərlə indiki hakimiyyət seçkilərdə qələbə qazanmağa çalışır. İnzibati resursların mövcudluğu da hakim "Gürcü Arzusu" partiyasının qələbə qazanacağı ehtimalını artırır.

## "Gürcüstanda, xüsusilə şiə təriqətinə məxsus olan insanlar arasında İran rejiminin təsiri hədsiz dərəcədə artmışdır"

***- Düşünürsünüz ki, Rusiyadan fərqli olaraq Qərb və ABŞ Gürcüstan xalqını, xüsusilə də buradakı Qərbmeylli vətəndaşları taleyin ümidinə buraxıb?***

- Saakaşvili hakimiyyətdən getdikdən sonra indiki hakimiyyət onun Qərb ölkələri qarşısında götürdüyü öhdəliklərin bir çoxundan imtina edib. Ona görə də Qərb və ABŞ Gürcüstana ayrılan maliyyə yardımlarını dayandırmaq, onun Avropa Birliyinə və NATO-ya üzvlüklə bağlı atılmış addımlardan geri çəkilmək yolunu tutublar. Yenə də qeyd edirəm ki, seçim Gürcüstan xalqınındır, öz gələcəklərinə hansı yolla davam etməyə onlar qərar verməlidir. Şəxsən mən hesab edirəm ki, Gürcüstan vətəndaşları Saakaşvilinin hakimiyyəti dövrünü uzun müddət nağıl kimi xatırlayacaq.

***- Yəni Gürcüstanda Qərbmeylli qüvvələrin hakimiyyətə gəlmək şansının olmadığını düşünürsünüz?***

- Saakaşvilinin hakimiyyəti Gürcüstanı Rusiya imperiyasının təsirindən çıxarmaq üçün unikal bir şans idi. Çox təəssüf ki, gürcü xalqı əllərində olanın qədrini bilmədi.

***- Belə bir vəziyyətdə Gürcüstanda vətəndaş qarşıdurması ehtimalı varmı?***

- Seçkidən sonra Gürcüstanda hər hansı qarşıdurma olacağını zənn etmirəm. Hazırkı hökumət 12 ildir hakimiyyətdədir, yəni artıq 3 dəfə seçiliblər, 4-cü seçkiyə gedirlər. Bu müddət ərzində kifayət qədər oturuşublar, xeyli sosialyönümlü layihələr həyata keçiriblər. Üstəlik, Gürcüstan müxalifəti hazırda seçkini udacaq qədər gücə malik deyil. ABŞ və Qərb də sanki Gürcüstandan əllərini üzüblər. Düşünürəm ki, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın Qərbə meylli fəaliyyəti Ermənistanı ABŞ və Qərbin gözündə Gürcüstana bir alternativ kimi meydana çıxarır.

> - Seçkidən sonra Gürcüstanda hər hansı qarşıdurma olacağını zənn etmirəm. Hazırkı hökumət 12 ildir hakimiyyətdədir, yəni artıq 3 dəfə seçiliblər, 4-cü seçkiyə gedirlər. Bu müddət ərzində kifayət qədər oturuşublar, xeyli sosialyönümlü layihələr həyata keçiriblər. Üstəlik, Gürcüstan müxalifəti hazırda seçkini udacaq qədər gücə malik deyil. ABŞ və Qərb də sanki Gürcüstandan əllərini üzüblər...

***- Yeri gəlmişkən, bu gün Azərbaycanda da bir sıra siyasi təhlilçilər Gürcüstandakı seçkilərlə bağlı Qərbi ittiham edir, Rusiyapərəst mövqe nümayiş etdirirlər. Sizcə, bütün bunlar hardan qaynaqlanır?***

- Azərbaycandakı bəzi siyasi təhlilçilər nəinki Gürcüstandakı seçkilərlə, ümumilikdə hər bir məsələ ilə bağlı Qərbi ittiham edir və Rusiyapərəst mövqe göstərirlər. Son dövrlər bu, xüsusilə qabarıq nəzərə çarpır. Hesab edirəm ki, Gürcüstanda olduğu kimi, Azərbaycanda da Rusiyanın təsiri hələ kifayət qədərdir və zaman-zaman bu qüvvələr özlərini büruzə verirlər.

***- Sözlərinizdən belə anlaşılır ki, Azərbaycandakı məlum siyasi təhlilçilər də Moskvanın, yaxud da "5-ci kolon"un sifarişi ilə danışırlar...***

- Mənim buna heç bir şübhəm yoxdur. Azərbaycanın müstəqilliyini bərpa etdiyi 33 ildən bəri Rusiya Azərbaycandakı maraqlarını heç vaxt gizlətməyib, hər zaman bizə problemlər yaradıb. Rusiyaya bağlı "5-ci kolon" proseslərin müəyyən mərhələsində aktivləşib, bəzən isə fəaliyyətlərini azaldıblar. Hazırda Ermənistanla sülh müqaviləsinin ciddi müzakirə olunduğu, bəzi Qərb ölkələrinin Azərbaycana qarşı ikili siyasət yürütdüyü bir dövrdə Rusiyapərəst qüvvələrin aktivləşməsi anlaşılandır.

***- Deməli, Gürcüstan tamamilə Rusiyanın nəzarətinə keçir, Ermənistan isə, əksinə, Kremldən üz döndərərək Qərbmeylli siyasi kurs götürür. Belə bir vəziyyətdə Cənubi Qafqazı nə gözləyir və burada Azərbaycanın yerini və rolunu necə görürsünüz?***

- Əslində, hazırda nə Gürcüstanın tamamilə Rusiyanın nəzarətinə keçdiyini, nə də Ermənistanın Kremldən üz döndərərək Qərbmeylli siyasi kurs götürdüyünü, yəni Rusiyadan qopacağını birmənalı şəkildə demək mümkün deyildir. Hər şeyi gələcək göstərəcək. Azərbaycan Cənubi Qafqazın aparıcı ölkəsi olaraq, balanslaşdırılmış xarici siyasətini davam etdirməlidir. Məni narahat edən odur ki, son dövrlər ümumilikdə Rusiyaya meyllilik artmışdır. Lakin hesab edirəm ki, bu, xarici siyasətimizdə balansın pozulması deyildir.

***- Sizinlə müsahibə haqda söhbət edərkən daha çox ölkədəki vəziyyət, sosial durumla bağlı danışmağı qərara almışdıq. Lakin gedişat məsələləri siyasi müstəviyə aparıb çıxardı. Bu baxımdan, fəaliyyətinizlə bağlı oxucularımız üçün maraq doğuracağı nöqteyi-nəzərdən bir məsələ haqda da fikrinizi bilmək istərdik. Vaxtilə sahibi barəsində cinayət işi apardığınız "Hürriyyət" qəzetinə müsahibə verməkdə sizdə hansı hissləri doğurdu?***

- Hazırda cəmiyyətimizdə, sosial şəbəkələrdə və mətbuatda müzakirə olunan əsasən iki istiqamət mövcuddur. Biri siyasi ekspertlərin, təhlükəsizlik mütəxəssislərinin, geo-politiklərin "inhisarında" olan hadisə və proseslər, digəri isə ucuz şou-biznes xəbərləri və yersiz qalmaqallardır. Cəmiyyəti böyük mənada narahat edən çoxsaylı sosial problemlər vardır. Biz müsahibə verərkən bu məsələləri işıqlandırmağı razılaşmışdıq. Quru sərhədlərinin bağlı olması məhz o sahə ilə əlaqəli olduğuna görə, ordan başlayan sual Cənubi Qafqazdakı siyasi proseslərə qiymət verməyə qədər gəlib çıxdı. Mən özümü nə siyasi ekspert, nə təhlükəsizlik eksperti hesab etmirəm, amma cəmiyyətə maraqlı və faydalı ola biləcək xeyli məlumata malikəm və müzakirələrə açığam.

Bəli, 1998-ci ildə "Hürriyyət" qəzetinin əvvəlki sahibi Qurban Məmmədov barədə cinayət işinin istintaqını aparmışam. İndi bu qəzetə müsahibə vermək mənim üçün daha rahatdır. Çünki cinayət işinin istintaqı və məhkəməsi gedən dövrdə demək olar ki, qəzetin hər buraxılışında barəmdə xeyli məlumatlar verilmiş, hətta lətifələr də yazılmışdı.

***- Bu gün həmin cinayət işi barədə mətbuatda getməyən, bizə məlum olmayan hansısa maraqlı məqamı deyə bilərsinizmi?***

- Həmin cinayət işinin mahiyyəti ilə bağlı mətbuatda hansı məlumatların getdiyi mənim dəqiq yadımda deyil. Oxucular üçün nəyin maraqlı olduğunu da indi deyə bilmərəm. Həmin cinayət işinin başlanmasına səbəb olmuş hallar və işin gedişatı haqda nə vaxtsa ətraflı söhbət edərik.

**Söhbətləşdi:**
**Anar HƏSƏNLİ**



**Məğrur Bədəlsoy**

# Azərbaycana hava yolu ilə sənədsiz casuslar göndərilir

## XİN Azərbaycan vətəndaşlarının hüquqlarını qorumaqdan imtina edir

**Media müalicəyə getdikləri Soçidən Bakıya reysə buraxılmayan Qarabağ qazisi ailəsinin üzləşdiyi problemdən yazıb. Qısaca onu deyək ki, əlil cütlüyün gecikmədiyi halda J2 8632 reysini yerinə yetirən uçağa minməsinə yol verilməməsi Azərbaycan tərəfini maraqlandırmır. Rusiya tərəfi - prokurorluq hələ də araşdırma aparır və hər cavabında AZAL-ın, onun Soçi nümayəndəliyinin qanunsuz əməllərini açıqlayır.**

Cənub nəqliyyat prokurorluğu bildirib ki, biz AZAL-ın qaydasına görə, 6:45-də minik qapısında olmalıydıq, 6:45:30 saniyədə olmuşuq , yeni yarım dəqiqə gecikdiyimizə görə bizi reysə buraxmayıblar. Bəs bizim yerimizdə kim uçub, bəyəm sərnişinlərin siyahısını əldə etmək belə çətindir?

Rusiya Federasiyası tərəfi - prokurorluq 106 yerlik uçaqda 105 nəfərin uçduğunu bildirib və bizə verilən yerlərin sənədləşmə olmadan (?) RF-dən deport edilən Azərbaycan vətəndaşına verildiyini bildirib. Bununla Rusiya prokurorluğu AZAL-ın Soçi nümayəndəliyini "dimdiyindən tora düşürüb". Axı, birincisi, yarım, bir dəqiqənin içində, lap 5 dəqiqə olsun, kimisə gecikənin yerinə yerləşdirmək olmaz! Deməli, korrupsiya cinayəti yolu ilə bizim yerimizi sənədləşməsiz, bilet yazmadan elə minik qapısının ağzında, trapa gedən yolda satıblar.

İkincisi, bəyəm deport edilən şəxs anonimdir, kimliyi, qadınkişiliyi bilinmir? Deport olunubsa, onu deportasiya edən məhkəmə icraçıları, Soçi Federal miqrasiya xidmətinin əməkdaşları da aeroportda yola salmalı idilər. Və ən başlıcası, deport olunan şəxs biletsiz , sənədsiz uça bilməz. Bəlkə elə bu şəxs casusdur, bileti olmadan uçağa xidmət edən əslən azərbaycanlı olmayan personal (Soçidə AZAL-ın nümayəndələri , biz gördüyümüzə görə, Orta Asiya mənşəli şəxslərdir- M. B.) buraxıb Azərbaycana? Quru yollarını 4 ildir bağlamışıq ki, casuslar gələ bilər, hava yolu ilə gəlmək lap asandır ki! Baxın, Qarabağ qazisinin adı ilə, onun bileti, pulu ilə gələn kimdir, nə AZAL bunu açıqlayır, nə Soçi aeroportu. Fikrimizcə, Azərbaycan DTX-sı, ya Xarici Kəşfiyyat Xidməti bu faktı araşdırmağa borcludur.

XİN-in konsulluq idarəsi isə işini görməkdən, Rusiyada hüququ pozulan, reysə "lotuluqla" buraxılmayan Azərbaycan vətəndaşlarının hüquqlarını qorumaqdan imtina edir. 3 ayda bir dəfə də olsun RF-dəki Azərbaycan səfirliyi adi bir cavab da verməyib. Halbuki keçmiş səfir Polad Bülbüloğlu anında onlayn müraciətlə bilgiləndirilib , hətta reysə buraxılmayan, məcburən Soçi- Moska -Bakı reysinə dördqat bahasına bilet alan vətəndaşlarla birlikdə eyni uçaqda Bakıya gəlib. Onu əvəzləyən Rəhman Mustafayevə müraciətlərə də baxılmır. XİN-in konsulluq idarəsinin rəisi Emil Səfərov hüququ pozulan vətəndaşların şikayətini RF-dəki səfirliyə göndərməkdənsə, AZAL-a göndərib və sonuncunun ənənəvi saxta cavabını şikayətçiyə yönləndirib. Təkrar şikayətlərə isə baxmır, "dediğim dedik"dir prinsipi ilə isə hüquq qorunmur. Deyəsən, Azərbaycanda bütün dövlət qurumları "bir-birinin ağzına tüpürüb", hamı işini görmək yerinə, "poçtalyonluq edir". Yeri gəlmişkən, "baş poçtalyon" Ombudsman, bu yol heç bir cavab verməyib. Yəqin Rusiya onun "dairəsinə" aid olmadığından, şikayəti aidiyyatı üzrə göndərə də bilmir. Amma XİN-ə göndərə və onun verdiyi cavabı 3 dəfə təkrar edə bilərdi. Belə poçtalyonluq xidməti ilə isə nə hüquq qorunar, nə də dövlət (marağı). Sənədsiz şəxslər hava yolu ilə qazilərin pulu hesabına gəlib , casusluq xidmətini sürdürərlər.

...Yazı tamamlanan anda XİN katibliyinin elektron poçtundan konsulluq idarəsinin rəisi Emil Səfərovun növbəti "dediğim dedikdir" cavabı gəldi: " Bildirmək istərdik ki, 03.10.2024-cü il tarixli müraciətinizdə göstərilən məsələnin araşdırılması istiqamətində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) səlahiyyətləri çərçivəsində görülmüş mümkün tədbirlər və onun nəticəsinə dair XİN-in ...12.09.2024-cü il tarixli məktubu ilə sizə cavab verilmişdir". İndi söz Azərbaycan Respublikasının Konstitusiyasındadır, desin görək, bu cavab Ona, konkret 53-cü maddəyə uyğundurmu? 53-cü Konstitusiya maddəsinin III hissəsini "AİDİYYATI ÜZRƏ" XİN-in , konsulluq idarəsinin , RF-dəki səfirliyin diqqətinə çatdırırıq: " Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının HÜQUQİ MÜDAFİƏSİNƏ təminat verir və onlara HAMİLİK EDİR". Hüquqa təminat, hamilik poçtayonluqla, "dediğim dedikdir"lə olur? Cavab gərəkməz, sual ritorikdir...

# Kiberdələduzların yeni fırıldağı

## Şəxsiyyət vəsiqəsinin şəkilini göndərdi, hesabındakı pullar oğurlandı...

**Vətəndaş Əsədov Qabil Əsəd oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Dələduzluqla üzləşdiyini deyən şikayətçi yazır:**



"Mən, Əsədov Qabil Əsəd oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemlemi işıqlandırasınız.

Məlumat üçün bildirim ki, internet saytlarından birinə avtomobil satmaq məqsədilə elan yerləşdirdim. 3-4 dəqiqə sonra zəng gəldi. Qadın idi. Şəkilinin üstündə də "Zaqatala" yazılmışdı.

Maşını almaq istədiyini bildirdi. Dedi ki, Zaqatala rayonundanam, hazırda isə Qazaxıstandayam, ona görə




də sizə rus nömrəsi ilə yazıram.

Əlavə etdi ki, maşını atası üçün almaq istəyirəm. Dedi ki, atam Zaqatalada yaşayır.

Qadın Azərbaycan dilində danışırdı. Maşını bəyəndi, beh verəcəyini söylədi. Bildirdi ki, şəxsiyyət vəsiqəniz vasitəsi ilə sizə beh göndərəcəm. Məndə şəxsiyyət vəsiqəmin surətini həmin qadına göndərdim. Biraz sonra zəng edib bildirdi ki, pulları bütöv köçürə bilmirəm, hissə-hissə köçürəcəm. Xahiş etdi ki, kod gəldikdə ona xəbər edim. Bildirdim ki, gələn kodu heç kəsə vermək olmaz. Yalvardı ki, mən pulu başqa cür köçürə bilmərəm. Körpə uşağım var, yoxsa gərək banka gedim. Mən də kodu ona göndərdim. Sonra dedi ki, pulu 100 manat göndərə bilmirəm, 50 manat göndərə bilərəm. Mən əvvəl uşağın şəxsiyyət vəsiqəsini, sonra isə dostlarımın şəxsiyyət vəsiqələrinin surətini göndərdim. Bu, guya bizə pul köçürəcəkdi.

Səhər pulları almaq üçün poçta getdim. Mənə oradan bildirdilər ki, sizdən kod alınıbsa, sizin pulunuzu çəkə bilərlər. Dərhal kredit kartlarımı yoxladım. Kartımdan 51 və 71 manat pul çəkilmişdi. Ümumi desək, 122 manat pulum kartımdan oğurlanmışdı".

Şikayətçi deyir ki, müvafiq qurumlara müraciət etsə də, pulunu geri qaytara bilməyib.

P.S. Oxucularımızın diqqətinə çatdıraq ki, şəxsiyyət vəsiqənizin şəklini əldə edən kiberdələduzlar FIN kodunuz vasitəsilə bir-bir mobil bankaların tətbiqlərində şifrə bərpa əməliyyatları edib, müştərisi olduğunuz bankı tapırlar. Daha sonra sizi manipulyasiya edib, guya ödəmə etmək üçün nömrəyə gələn kodu istəyirlər. Zərərçəkmişlər heç bir bank məlumatı verməmdiyini düşünürək, rahatlıqla həmin kodu qarşı tərəfə deyirlər. Beləcə, bank tətbiqi dələduzun əlinə keçir və dələduz hesablarınızın hamısına giriş edərək "card to card" əməliyyatlara başlayır. Bu baxımdan, diqqətli olmalısınız.

**Aynurə İSMAYIL**

# Qarabağ qazisi küçələrdə gecələyir

## Mübariz Əliyev: "Məmurların çoxu məni adam yerinə qoymur"

**Mingəçevir sakini Əliyev Mübariz Həsrət oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayəti olduğu kimi dərc edirik:**

"Mən, Əliyev Mübariz Həsrət oğlu, yazaraq bildirirəm ki, Birinci Qarabağ müharibəsinin qazisiyəm.

Kimsəsiz insanam, heç bir yerdən dəstəyim yoxdur. Elə olur ki, parklarda ac yatıram.

Gəncliyimdə indiki kimi aciz insan deyildim. 18 yaşımdan əsgərliyə gedib, Qarabağda döyüşmüşəm. Öz səhvim ucbatından "bomj" həyatı yaşayıram.

Keçmiş Qarabağ müharibəsi iştirakçısı kimi fikirləşirəm ki, dövlət məni yaşayış yeri və işlə təmin etməlidir.

Qeyd edim ki, məmurların çoxu




məni adam yerinə qoymur. Parkda və şəhər xəstəxanasında birtəhər gecələyirəm. Adyalım, döşəyim yoxdur. Yemək gəzdirdiyim sellofan torbadan yastıq kimi istifadə edirəm.

Mənə kömək edən insanların sayının azalması ümidlərimi zərrə-zərrə öldürür. Əvvəllər dost-tanış birtəhər kömək edirdi. İndi onlar da yoxdur. Ac qaldığım günlər çox olub. Hava soyuq olanda mərhəmətli insanlar mənə yaşadıqları binanın girişində yatmağa icazə verirlər. Əynimdəki paltarları mənə yazığı gələnlər verib. Mərhəmətli insanların sayəsində sağ qalmışam.

Psixoloji vəziyyətim normaldır, amma neçə yaşım olduğunu artıq unutmuşam.

Səlahiyyətli şəxslərdən xahiş edirəm, mənə kömək etsinlər, bilim ki, gecələr başımı isti yastığa qoyub yata bilirəm. Ümid edirəm ki, məni yataqxana ilə təmin edəcəklər".

**Aynurə İSMAYIL**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# Birinci sinif şagirdinin ingilis dilini öyrənməsinə ehiyac varmı?

## Təhsil eksperi Kamran Əsədov: "Uşaqların erkən yaşlardan xarici dil öyrənməyə başlaması gələcəkdə daha geniş imkanlara sahib olmalarına kömək edə bilər"

**Ölkəmizdə təhsilin inkişafına kifayət qədər pul ayrılır. Günümüzün reallığı isə odur ki, şagirdlər bəzi dərslərə girmir, dil öyrənməyə üstünlük verirlər. Hazırda məktəblərimizdə ingilis dili dərsləri birinci sinifdən başlayaraq, on birinci sinfə kimi tədris olunur. Amma nəticə etibarilə uşaq 11 il ingilis dilini keçməsinə baxmayaraq, məktəbi bitirəndə bəzən uğurlu nəticə olmur. Bəs, ana dilini belə doğru-dürüst dərk edə bilməyən birinci sinif şagirdinin ingilis dilini öyrənməsi nə dərəcədə düzgündür?**

Məsələ ilə bağlı təhsil eksperi Kamran Əsədov "Hürriyyət"ə açıqlamasında bildirdi ki, birinci sinif şagirdlərinin ingilis dilini bilməsi müasir dövrdə mühüm əhəmiyyət kəsb edir: "Qlobalizasiya, informasiya texnologiyalarının inkişafı və beynəlxalq əməkdaşlığın artması nəticəsində ingilis dili dünyanın bir çox ölkələrində ünsiyyət və iş dili kimi qəbul olunur. Bu səbəbdən, uşaqların erkən yaşlardan xarici dil öyrənməyə başlaması onların gələcəkdə daha geniş imkanlara sahib olmalarına kömək edə bilər.

Müxtəlif tədqiqatlar göstərir ki, uşaqlar 2-3 yaşından etibarən xarici dil öyrənməyə başlaya bilərlər. Bu yaşda uşaqların beyin inkişafı, yeni bilikləri mənimsəmə qabiliyyəti və dilə olan təbii maraqları onların yeni dilləri asanlıqla öyrənmələrinə imkan tanıyır. Birinci sinif, yəni 6-7 yaş, erkən dil öyrənmənin davamı üçün uyğun bir yaşdır, çünki bu dövrdə uşaqlar artıq daha strukturlaşdırılmış bilikləri qəbul edə bilirlər.

Uşaqların beyinləri erkən yaşlarda daha çevikdir, bu da onlara yeni dilləri öyrənməyə kömək edir. Araşdırmalar göstərir ki, xarici dil öyrənmək beyin inkişafını stimullaşdırır, analitik düşüncə və problem həll etmə bacarıqlarını gücləndirir".

Kamran Əsədov deyir ki, xarici dil öyrənmək uşaqlara fərqli mədəniyyətləri tanımağa və onların düşüncə tərzini anlamağa kömək edir. Bu, onların daha açıq fikirliliyə və müxtəlifliyə hörmət etməyə yönəldir: "İxtisas seçimində və iş axtarışında xarici dil bilikləri müasir dünyada bir çox üstünlüklər gətirir. Uşaqların gənc yaşda xarici dil öyrənməsi, onları gələcəkdə daha rəqabət qabiliyyətli mütəxəssislərə çevrilməyə hazırlayır".

Ekspert vurğulayır ki, erkən yaşdan xarici dil öyrənməyin mənfi tərəfləri isə dərs yükü və stressdir: "Uşaqların erkən yaşlarda bir neçə dil öyrənməsi bəzən onların üzərinə əlavə yük qoyur, bu da stressə və motivasiyanın azalmasına səbəb ola bilər. Bəzi uşaqlar üçün xarici dil öyrənmək çətinlik yarada bilər, bu da özlərini etibarsız hiss etmələrinə səbəb ola bilər. Bəzi hallarda uşaqlar bir neçə dil öyrənərkən ana dilindəki bilikləri zəiflədə bilərlər. Uşaqların ana dilini yaxşı mənimsəmələri, digər dilləri öyrənmələri üçün əsasdır".






K.Əsədov dünya təcrübəsindən danışaraq qeyd edir ki, bir çox inkişaf etmiş ölkələr, o cümlədən Finlandiya, İsveç, və Kanada, uşaqlara erkən yaşlardan xarici dilləri öyrətməkdə aktivdirlər: "Məsələn, İsveçdə məktəbəqədər yaşdan etibarən uşaqlara ingilis dili öyrədilir və bu, onların mədəniyyətlərarası bacarıqlarını artırır. Finlandiyada isə dil öyrənmək oyunlar vasitəsilə həyata keçirilir ki, bu da uşaqların motivasiyasını artırır. Buna görə də, uşaqların birinci sinifdən etibarən ingilis dilini öyrənməsi onların inkişafı üçün müsbət təsir göstərə bilər. Lakin, dil öyrənmənin stress yaratmaması üçün proqramlar uşaqların yaşlarına və inkişaf səviyyələrinə uyğun hazırlanmalıdır. Uşaqlara dili öyrətmək üçün oyunlar, interaktiv fəaliyyətlər və mədəniyyətlə tanışlıq metodları tətbiq olunmalıdır ki, bu da öyrənmə prosesini əyləncəli və maraqlı etsin".

**Aynurə İSMAYIL**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Dil milli birliyin birinci şərtidir



**Məmmədxan ƏZİZXANLI,**
***Keçmiş prokuror***

Azərbaycan dövlətinin dövlət dili "Azərbaycan Milli Şurasının Azərbaycanın dövlət müstəqilliyi haqqında" 1918-ci il 28 may tarixli Bəyənnaməsində, Azərbaycan Demokratik Respublikasının Müvəqqəti Hökuməti tərəfindən Türk dilinin dövlət dili olaraq qəbul olunması haqqında 27 iyun 1918-ci tarixli qərarında, "Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyənnamə barəsində Azərbaycan Respublikasının Ali Sovetinin 30 avqust 1991-ci il tarixli Qərarında, "Azərbaycan Respublikasınının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 18 oktyabr 1991-ci il tarixli Konstitusiya Aktında, 22 dekabr 1992-ci il tqrixli, 413 saylı "Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu"da əks olunan prinsiplərə, əsaslara uyğun, ölkədə çoxluq təşkil edən, ölkə ərazisinin çoxu onun milli ərazisi olan və bu arealda tarixən faktiki ortaq ünsiyyət vasitəsi olaraq mövcud olan Türk millətinin dili - Türk dili olmalıdır.

Əgər ölkə ərazisi, ölkədə yaşayan və ölkə ərazisi tərkibində onun milli əraziləri olan millətlərin birləşməsindən yaradılmışdırsa, onda bu millətlərin dilləri onların hamısının say çoxluğu sırası ilə I, II və sairə dövlət dili statusu daşıya bilərdi... lakin bu hal Azərbaycan Respublikasına aid edilə bilməz. Çünki Azərbaycan Respublikasının ərazisi Türk milli ərazisində, Türk millətinin iradəsini əks etdirən yuxarıda sadalanan sənədlərdə oluşdurulmuş, sonradan bərpa edilmiş, indi də eynən adlandırılmalıdır.

Bütünün (məqalənin) adında deyildiyi kimi dil milli birliyin birinci şərtidir. Başqa sözlə, dil, fikir və əməl birliyi olmadan hər hansı birlik qurulmaz. Dil birliyini təmin etmənin reallıqdan irəli gələn faktiki və elmi əsasları vardır. Dil birliyini, həm də mümkün qədər əhatəli, mənalı, məntiqli ədəbi dili formalaşdırmaq üçün həvəskar və özfəaliyyət qaydası yetərli deyil. Ona görə də bu yöndə:

1. Xüsusi Dövlət Proqramı qəbul edilməlidir;

2. Xüsusi Dövlət Proqramını oluşduran peşəkar dilçilərdən, habelə həvəskarlardan Dövlət Türk Dil Komissiyasının İşçi Qrupu yaradılmalıdır;

3. Dövlət Türk Dil Komissiyasının İşçi Qrupunun (DTDKİQ) işini təşkil etmək üçün dövlət büdcəsindən gərəkən miqdarda pul ayrılmalıdır;

4. DTDKİQ üzvləri hazırda mövcud olan söz ehtiyatlarımızdan Türk Dil Bankımızı yaratmalıdır;

5. Türk Dil Bankımızı daha da zənginləşdirmək üçün yurdumuzun bütün bölgələrində, o cümlədən respublika ərazisindən kənarda bütün, o cümlədən arxaik və dialekt söz nümunələrini toplamaq üçün Dövlət Türk Dil Komissiyasının İşçi Qrupu üzvləri, bölgələrin sayı qədər yarımqruplara bölünərək, yerlərdə çalışmaqla görəvləndirilməlidir. İşçi qrupunun işini asanlaşdırmaq, ona yardım edilməsi üçün Azərbaycan xalqına və soydaşlarımıza müraciət edilməli, onların təqdim etdikləri söz nümunələri də qeydə alınmalıdır;

6. Söz ehtiyatlarımızın toplanmasını bitmiş saydıqdan sonra Dövlət Türk Dil Komissiyasının İşçi Qrupu birgə qərar verməklə, yeni, zənginləşmiş Azərbaycan Türk Dil Bankımızın yaradıldığını elan etməlidir;

7. Dövlət Türk Dil Komissiyasının İşçi Qrupu eyni işin respublikamızdan kənar bütün Türk boylarında təşkil edilməsi üçün, bütün Türk boylarına, onların dövlətlərinə, yerli inzibati və kompakt yaşam vahidlərinə müraciət etməlidir;

8. Yalnız bütün Türk boylarından toplanan söz ehtiyatlarımızın toplanmasını bitmiş və incələnmiş saydıqdan sonra, Türk Boylarının Dövlət Dil Komissiyalarının İşçi Qrupu birgə qərar verməklə, yeni, bütün Türk boylarının söz ehtiyatlarını ehtiva edəcək, yaradılacaq Turan Dövlətinin dövlət dili funksyasını yerinə yetirə biləcək, daha dolğun, zənginləşmiş ümumtürk - Türk Dil Bankımızın yaradıldığını elan etməlidir;

9. Türk Dil Bankı əsasında Türk millətinin vahid tədris, təlim, tərbiyə işlərinə başlanılması üçün dərsliklər çap edilməli, mətbuat, informasiya vasitələri, dövlət dili bu əsasa keçməlidir. Bu işi Türk dövlətləri birlikdə maliyyələşdirilməlidir;

10. Turan Dövlətinin ədəbi dövlət dilinin formalaşdırılması üçün Türk Dil Bankından istifadə etməklə, bütün Türk boylarında və birliklərində dövlət büdcəsindən maliyyələşdirilən orta, orta ixtisas və ali məktəblərdə, kollektivlərdə tədris, təlim, tərbiyə işlərinə başlanılmalıdır;

11. Bu barədə bildiriş Birinci Türkçülük Çalışmaları iştirakçılarının adından bütün Türk dövlətlərinin başçılarına, parlamentlərinə, hökumətlərinə, Türk dövlətlərinin parlament və digər koordinasiya qurumlarına, bilimlər akademiyalarına, Türk boylarının yerli inzibati və kompakt yaşam vahidlərinə, Türk Dövlətləri Təşkilatına göndərilməli və onların - Ümumtürk Dil Hərakatında fəal iştirakı istənilməlidir;

12. Təşkilati işlər Birinci Türkçülük Çalışmaları iştirakçıları sırasından seçiləcək Təşkilat Qrupuna tapşırılmalıdır.



# Vətən səmasının dan ulduzu...

**Orxan Mübariz oğlu Dənziyev 18 yaşında Vətən yolunda şəhid olaraq, adını yeni, şanlı tariximizə yazıb. Lerik rayonu, Laman kəndində dünyaya göz açan bu dağ vüqarlı igidlə indi bütün Azərbaycan xalqı fəxr edir. Orxanın ömür yolu çox qısa oldu, amma qərinələr boyunca əsl qəhrəmanlıq məktəbi kimi xatırlanacaq. Gələcək nəsillər Vətəni sevməyi, doğma torpağı necə qorumağı məhz ondan öyrənər.**



Vətən qarşısında son borcunu şərəflə verən Orxan Dənziyev 2020-ci ildə ordu siralarına yağıdan qisas almaq istəyi ilə yola düşüb. Ön cəbhədə xidmət edib, mərd, cəsur, ağıllı bir gənc olaraq tanınıb. Komandirlərin verdiyi tapşırıqları vaxtında, dəqiq yerinə yetirib, bir qayda olaraq hərbi təlimlərdə həmişə fəallıq göstərib. Odur ki, üç ayın əsgəri olsa da, döyüş meydanında işğalçı erməni dığalardan qisas almağa özünü tam hazır bilib.

44 günlük haqq savaşımızda igid əsgər son damla qanına qədər vuruşub, düşməndən qisas alacağını deyib və ürəyində Vətən məhəbbəti, əlində silah çəkinmədən, qorxmadan hərb meydanına girib. Yağıya qarşı ilk ağır ölüm-dirim savaşında öz cəsurluğunu göstərə bilib. Döyüşdən-döyüşə vurduğu sarsıdıcı zərbələrlə düşmənə ciddi itkilər verib.

Ağdərə-Tərtər istiqamətində gedən döyüşlərdə daha əzmlə vuruşub, hər qarış torpaq uğrunda böyük şücaət göstərib. 2020-ci ilin 15 oktyabrda sinəsini sipər edib məkrli düşmənə layiqli cavab verən yerdə şəhidlik zirvəsinə ucalıb..

Doğma Azərbaycanın müqəddəsliyini, qürurunu hər şeydən üstün tutan, çətin məqamda canını ona fəda edən Orxan Mübariz oğlu milyonların ürəyinə köçməklə, həm də dövlət tərəfindən “Vətən uğrunda”, Suqovuşanın, Ağdamın azadlığına görə medallara layiq görülüb.

Dağlar diyarında kiçik də, böyük də öz qısa ömrünü Vətəni, xalqı üçün yaşayan Orxanın igidliyi ilə qürur duyur. Xətrini əziz tutmaqla onu vaxtaşırı böyük məhəbbətlə, ehtiramla yad edirlər. Qarabağımızın xilaskarı olaraq yeni tariximizin qəhrəmanlıq simvoluna çevrilən Orxanın şəhadətinin dördüncü ildönümünü də çox qürurlu keçirdilər. Rayon rəsmiləri, müəssisə, təşkilat rəhbərləri, kənd sakinləri, şəhid ailə üzvləri doğma Laman kəndində onun uyuduğu məzarını baş çəkdilər, üzərinə gül dəstələri qoydular. Həmçinin bildirdilər ki, elimizin qəhrəman oğlu Orxan Vətən, torpaq uğrunda canından keçməyi bacardı. Belə bir şərəf hər adama nail olmur. Orxan şəhidlik zirvəsinə ucalmaqla əbədilik qazandı. Azərbaycan var olduqca, o, Vətən səmasının dan ulduzuna dönəcək..

Rayon icra hakimiyyətinin başçısı Ə.Abbasov mərasimdə iştirak edən şəhid ailə üzvlərinin qayğı və problemlərini daha ətraflı öyrənmək məqsədilə onlarla görüşüb, səmimi söhbət edib.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# “Lay-lay” borcu

(19.09.2023-cü il tarixində baş vermiş antiterror əməliyyatı zamanı şəhid olmuş kiçik çavuş Soltanbəyli Tamerlanın əziz xatirəsinə həsr olunur)



**Qəbələ rayonunun Tüntül kəndində, İmran kişinin ailəsində üç oğlan uşağı böyüyürdü. Adlarını da öz adına yaraşdırmışdı ata: Kamran, Tamerlan, Cavidan. Sadə bir kəndli ailəsi idi bu ailə. Ata fəhləlik edir, ana isə evdarlıqla məşğul olur, uşaqları böyüdürdülər. Onlar mal-qara saxlayır, tağ-tərəvəz əkir, bazarda satıb ehtiyaclarını ödəyirdilər. Heç kəsin işinə qarışmazdılar. Bu minvalla evdə üç sağlam, ağıllı oğlan böyüyürdü. Oğlanlar çox mehriban idilər, hamının köməyinə çatar, heç kəsin xətrinə dəyməzdilər.**

Biz qohumuq, ortancıl oğlan Tamerlan əlavə dərslər öyrənmək üçün yanıma gələrdi. Mən onda elə o vaxtlardan vətənpərvər ruhunu hiss edirdim. O, çox hərəkətli, hər mənada hazırcavab, anında qərar verən, bir az da zarafatcıl oğlan idi. Sonralar o, komandonun üzvü oldu. Ata, ana övladlarına təhsil vermək üçün mücadilə aparır, bütün gün işləyirdilər. Onları nələrin gözlədiyindən xəbərsiz idilər. Tamerlan hərbi xidməti başa vurduqdan sonra yenidən hərbi işə qayıtmaq istədi və müddətdən artıq hərbi xidmətin hərbi qulluqçusu oldu.

Vaxt-vədə yetişdi, Ali baş komandanın əmri gəldi. 30 il əvvəl yarımçıq qalmış işi başa çatdırmalı idik. Oğlanların üçü də müharibədə iştirak etdi. 44 günlük müharibə vaxtı Tamerlandan on gün xəbər çıxmadı. Ata-ana ölüm qoxusunu ilk o vaxtlar almışdılar. Ürəkləri əsim-əsim əsəndə oğuldan zəng gəlməsinin sevincini ancaq yaşayanlar bilər. Onlar da bu sevinci doyunca yaşadılar. Yenə də olacaq hadisələrdən xəbərsiz idilər.

Tamerlanla süfrə arxasında söhbət edirdik. O, keçdikləri çətinliklərdən danışır, qürurla söhbət edirdi. Rəna ana oğluna qulaq asır və tez-tez “can balam” deyirdi. Və birdən o, hönkürərək, “mən balalarıma doyunca lay-lay deməmişəm, həmişə onları beşiyə bələyib, iş dalınca qaçmışam. Onlar mızıldanaraq özləri özlərinə lay-lay deyib, yuxuya gedirlər”, - dedi.

Tamerlan da “indi yuxum gəlir, gedək mənə lay-lay de, yatım” deyərək gülümsədi və anasının kefini açmağa çalışdı. O, yenə söhbətə davam edərək əskərlərin necə qorxmazcasına irəlilədiklərini danışırdı. Biz onu fərəhlə dinləyirdik.

44 günlük müharibədən sonra Qarabağ meşələrində erməni ünsürlərinin qaldığını və hər an antiterror əməliyyatının başlaya biləcəyini bütün əsgərlər kimi Tamerlan da bilirdi. Buna baxmayaraq, iş müqaviləsinin vaxtı bitsə də, onu yenidən imzaladı. Beləliklə, öz fərmanına özü bilərəkdən, çəkinmədən, qorxmadan qol çəkdig



Bayrağa bükülmüş tabut həyətə girənə qədər ananın oğlunun şəhid olmasından xəbəri yox idi. Onu yaralı bilirdi. Bəlkə də həyətə gələn insan axınından bunu hiss etmişdi, lakin qəbul edə bilmirdig Və nəhayət o gəldi, lakin bu dəfə öz maşını ilə yox, başqa maşınla. Bu dəfə tək yox, böyük izdihamla gəldi. Bu dəfə hərbi paltarda, gülər üzlə və zarafatları ilə yox, solğun bənizlə, müqəddəs bildiyi bayrağa bükülü, həm də sakit və səssiz gəldi. Tabutu görən ananın ah-naləsi dağı-daşı lərzəyə gətirdi. Ürəkparaçalayan bu sözləri isə hamını lal etdi: ”Balamı verin, mən ona lay-lay deyəsi idim. Mənim ona lay-lay borcum var”. Bu an sözün bitdiyi an idi.

Şəhidin atası uşaqlar körpə olanda həmişə deyərdi ki, mənim fəhlə olmağıma baxmayın, oğlanlarım tanınmış adamlar olacaq. Bəli, Tamerlan sizə “Şəhid atası” kimi böyük bir status qazandırdı, özü də bunu qorxmadan könüllü etdi. Çoxlarının cəsarət edə bilmədiyi zirvəyə yüksəldi və onu hamı tanıdı.

Tamerlan neçə-neçə günahsız insanın qətlə yetirdiyi Xocalı torpağında antiterror əməliyyatı zamanı şəhid olub. İgid oğullar, bilin ki, qanınızı qarışdırdığınız vətən torpağı artıq bizimdir. Rahat yatın, nə qədər ki, düzgün siyasət davam edəcək, müstəqil Azərbaycan dövləti və Azərbaycan xalqı yaşayacaq, siz də heç vaxt unudulmayacaqsınız.

Şəhidlər bizim baş tacımız və onların məzarları müqəddəs and yerimizdir. Şəhid analarının əllərini ehtiramla öpür, şəhidlərin ruhları qarşısında baş əyirik. Allah rəhmət eləsin!

**Sara ƏZİZOVA**
***Qəbələ rayonu, Nohurqışlaq kənd məktəbinin müəllimi***

# Mədəniyyətimiz hansı əsaslar üzərində ucalır?

“Hürriyyət” qəzetinin 27.08.2024-cü il sayında jurnalist Aynur İsmayılın Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının direktor müavini Aytən Oktayqızı (Baxşiyeva) ilə müsahibəsinin ictimailəşdirildiyi “Azərbaycanda musiqi məktəblərini kimlər və nə üçün bağlamağa çalışırlar?” adlı kiçik yazısına rast gəldim. Yazının başlığını oxuya-oxuya, ortasındakı milli musiqimizin bəzi korifeylərinin bir qədər pərişan çöhrələri və sanki millətimizin, cəmiyyətimizin, dövlətimizin üzünə zillənmiş tənəli baxışları gözümə sataşdı...

*(Əvvəli ötən saylarımızda)*

SSRİ dağılarkən ölkədə yaranan vəziyyət, səhv etmirəmsə 1993-cü ildə Bakıda səfərdə olan Yevgeniy Primakovun Etibar Məmmədova dediyi, - “Extibar bolğşəə politika trebuet bolğşix jertv”, - sözü nə qədər acı olsa da, reallığı obyektiv olaraq güzgü kimi əks etdirən həqiqətdir. Onun dediyi böyük qurbanların verilməsini təşkil edənlərin məqsədi bu günkü müdhiş quruluşun qurulması olduğu kimi, hər bir ölkədə mürtəce quruluşun çökdürülərək, yerində normal bir quruluş qurulması zamanı hakimiyyət və vətəndaş arasında qarşılıqlı razılıq əsasında ortaq məxrəc tapılmadığı halda, böyük qurbanların verilməsi və faciələrin baş verməsi qaçılmaz olur. Belə bir vəziyyətdə hakimiyyət-vətəndaş qarşıdurmasının üsyan və ya inqilabla nəticələnməsinin cəmiyyətimizə yaxşı nəsə verə biləcəyi ehtimalı sıfıra daha yaxındır. Bu halda millətimizin, dövlətçiliyimizin mənafeyi xeyrinə nəsə baş verəcəyi, bəlkə ümidilə yanaşmanın sonda nə ilə nəticələnəcəyi barədə isə Türk aqilləri, - “Bəlkəni əkiblər, bitməyib”, - deyimi ilə qəti və birmənalı cavab vermişlər.

Bütün bu qeyd etdiklərim milli dövlətçiliyimiz və milli mənliyimizə, o cümlədən milli musiqimizə qənim kəsilənlərin, “maliyyə vəsaiti çatışmamazlığı” bəhanəsilə musiqi məktəblərimizə - milli mədəniyyətimizin bu önəmli amilinə təcavüz etməsinə imkan verən ölkədaxili obyektiv səbəblərdir. Milli dövlətçiliyimizin və milli mənliyimizin daha böyük və daha qorxulu düşmənləri özlərinin xarici siyasəti vasitəsilə bizim milli dövlət azadlığımıza ölümcül zərbə endirməyə daim fürsət axtarıblar. Belə bir fürsət əllərinə keçəndə heç vaxt onu əldən verməyən dünya gücləri və onların “maşa”, vasitə kimi istifadə etdiyi Türkə düşmən olub, öz ağalarının köməyilə qurub, onların himayəsi sayəsində öz milli dövlətlərini və milli varlıqlarını qoruyan erməni, farslar kimi millətlərdir. Bütün dünyaya hökmranlıq etmiş Türk millətinin bölünüb, parçalanıb, hissə-hissə məğlub edilərək, bu



...güclü Turan dövləti yaratmaqla, nəinki musiqi mədəniyyətimizi məhv etmək istəyənlərin, ümumiyyətlə, türk milli azadlığı, dövlət müstəqilliyi, təkcə Turan dövləti daxilində deyil, bütün dünya Türklərinin milli mənliyinə edilən hər hansı bir qəsdi, pis niyyətini vaxtında və qətiyyətlə neytrallaşdırmaq olar

günkü acınacaqlı duruma salınmasının səbəblərinə tarixi ardıcıllıqla, hətta ötəri nəzər salmaqla səthi təhlil etdikdə belə, məsələnin mahiyyəti bütün cizgiləri ilə çox aydın görünür. Mən bu yazıda bu səbəblərin ən önəmli və həlledici ikisi haqqında öz fikirlərimi bildirəcəyəm.

Bunların biri öz cəsurluğu, yenilməzliyi və s. müsbət cəhətləri ilə dünyanın digər millətlərindən fərqlənən, çox asanlıqla dövlət quraraq, onu böyük və güclü imperiyalara çevirən Türklərin bir-birilə orta maraq nöqtələrini taparaq birləşib nəhəng, məğlubedilməz gücə çevrilmək əvəzinə, bir-birilə döyüşərək zəifləyib, başqa millət və onların dövlətlərinin milli əsarətinə düşməsidir. Bunun ən bariz və birmənalı sübutu Toxtamış ilə Əmir Teymurun, Şah İsmayılın Sultan Səlimlə, Əmir Teymurun Sultan Bayazidlə apardığı müharibələr, bütövlükdə Türk millətinə körk olacaq faktlardır. Türklərin vahid dövlət olaraq birləşməsi istər-istəməz obyektiv olaraq onların milli birliyinin əsas, yeganə və həlledici şərti olan dillərinin müxtəlif istiqamətlərdə inkişaf etməsi, üstəlik, əsarətinə düşdükləri millətlərin dillərində olan müxtəlif sözlərin onların dilinə qatılması səbəbindən, çox vaxt hətta bir-birini məişət səviyyəsində başa düşməyi belə əngəlləməklə, bu gün müstəqil dövlətlərinə malik olan Türk toplumlarının iqtisadi, hüquqi, inziğati, elmi, texniki cəhətdən sürətlə inteqrasiya olunaraq vahid millət, vahid dövlət halında birləşməsi qarşısında həlli ən azı 20-30 il tələb edən böyük bir maneəyə çevrilib.

Bunların biri öz cəsurluğu, yenilməzliyi və s. müsbət cəhətləri ilə dünyanın digər millətlərindən fərqlənən, çox asanlıqla dövlət quraraq, onu böyük və güclü imperiyalara çevirən Türklərin bir-birilə orta maraq nöqtələrini taparaq birləşib nəhəng, məğlubedilməz gücə çevrilmək əvəzinə, bir-birilə döyüşərək zəifləyib, başqa millət və onların dövlətlərinin milli əsarətinə düşməsidir. Bunun ən bariz və birmənalı sübutu Toxtamış ilə Əmir Teymurun, Şah İsmayılın Sultan Səlimlə, Əmir Teymurun Sultan Bayazidlə apardığı müharibələr, bütövlükdə Türk millətinə körk olacaq faktlardır...

İlk baxışdan bu müddət kiçik bir zaman kəsimi olaraq görünə bilər. Lakin ölkə daxilində və beynəlxalq müstəvidə Türkün birliyini özünün “qırmızı xətti” elan edən cılız, şovinist erməni və fars molla faşizmindən daha təhlükəli olub, susqunluqla Türkün birləşməsinə heç bir halda yol verməmək üçün çox ciddi tədbirlər hazırlayıb, həyata keçirən iri beynəlxalq güclər də mövcuddur.

Milli birliyimizin qarşısında duran ikinci böyük maneə isə din məsələsidir. Din insanların şüurunu öz düşüncə və məqsədlərinə tabe edərək, mütiləşdirib özünə ideoloji qul etməklə bərabər, onun özünü inzibati cəhətdən də qula çevrilməsini son dərəcə asanlaşdıraraq, həm də onun asanlıqla assimilyasiya edilməsinə imkan verən ən səmərəli üsul və vasitədir. Quldarlıq quruluşunun yaranmasının ilk dövrlərindəki hiyləgər insanların başqalarını öz iradə və məqsədlərinə tabe etmək üçün fikirləşib kəşf etdikləri üsul və onu reallaşdırmaq üçün ixtira etdikləri ən səmərəli təşkilati mexanizm olmaqla, bəşəriyyətin inkişafının bu günkü səviyyəsində belə hələ də müvəffəqiyyətlə istifadə edilən bir ideoloji silahdır.

Hələ də dini ehkamlar vasitəsilə insanları bu ədalətsiz münasibətlərin təbiətən mütləq və labüd olaraq belə olmalı olduğuna inandırmaq çətin məsələ deyil. Çünki insanların belə ədalətsiz münasibətlərin aradan qaldırılaraq, onların arzu etdiyi və obyektiv olaraq mövcud ola biləcək ədalətli münasibətlərin qurula biləcəyi haqda heç bir elmi təsəvvürləri olmadığından, çarəsiz durumda qalaraq bu ədalətsiz münasibətlərin mövcudluğunu dini ehkamlar və posulatların izah etdiyi, qaçılması mümkün olmayn mütləq hal kimi dəyərləndirərək, qəbul etmək zorunda qalırlar.

SSRİ dağıldıqda müstəqillik əldə etmiş Quzey Azərbaycan Respublikasının bütün alanlarda pis vəziyyətdə olmasından sui-istifadə edən Tehranın şovinist fars molla faşizmi mədəni əlaqələr adı ilə burada özləri kimi molla (kərimə) rejimi quraraq, ölkəni ilhaq etmək istədi. Bu planları baş tutmayaraq ifşa olunduqdan sonra, özlərinin əsil, murdar üzləri və niyyətlərini açıq-aşkar biruzə verməyə başladılar. Hələ bu gün də burada Tehran rejimi nümayəndələrinin son 30 il ərzində din adı ilə yoldan çıxardıqları elmi, milli mənlik şüuru zəif olan insanlar və qurduqları dini təbliğat və terror şəbəkələrinin qalıqları qalmaqla ümumilikdə cəmiyyətimizin elmi əsaslarla inkişafını əngəlləməklə yanaşı, milli azadlığımız və dövlət müstəqilliyimiz üçün müəyyən dərəcədə təhlükə olmaqda qalır.

Bütün bunlarla yanaşı, bu gün şah və sultan babalarımızın müdhiş səhvlərini düzəldərək, ümumtürk ədəbi dili vasitəsilə millətimizi vahid, monolit Türk millətinə çevirmək, millətimizin müxtəlif dini daşıyıcılarının hüquqlarını vətəndaşların vicdan azadlığının təmin edilməsilə yanaşı, dinin təşkilati mövcudluğunu ləğv etməklə onun siyasiləşməsinə son qoymaqla, elmi inkişafımıza geniş yol açıb, dinin milli azadlığımıza və dövlətçiliyimizə təhlükə amili olmaq xüsusiyyətini neytrallaşdırmaq, türk dövlətləri başçılarının əsas şəxsi iddia və tələbləri ilə vətəndaşların mənafe və tələblərinin orta məxrəcini ödəyən şərtlər daxilində iqtisdai-ictimai quruluş əsasında böyük və güclü Turan dövləti yaratmaqla, nəinki Aytən xanım Oktayqızının qayğılandıran musiqi məktəblərini bağlamaqla musiqi mədəniyyətimizi məhv etmək istəyənlərin, ümumiyyətlə, türk milli azadlığı, dövlət müstəqilliyi, təkcə Turan dövləti daxilində deyil, bütün dünya Türklərinin milli mənliyinə edilən hər hansı bir qəsdi, pis niyyətini vaxtında və qətiyyətlə neytrallaşdırmaq olar.

**Şapur QASİMİ**

# İlk maarif naziri Nəsibbəy Yusifbəyli: təntənəli və faciəli ömür

Azərbaycan xalqının böyük şəxsiyyətləri nəsildən-nəslə xatırlanır, məqalələr yazılır, kitablar nəşr olunur. Bu ənənə bu gün də davam etməkdədir, deməli, biz unutqan deyilik. Necə ki, dövrümüzün tanınmış ictimai - siyasi və dövlət xadimi Nəsibbəy Yusif oğlu Yusifbəyli (1881-ci ildə Gəncədə doğulmuş, həlak olması haqqında dəqiq məlumat yoxdur) haqqında söz demək vaxtı çatmışdır. Dolu təhsil almış, əvvəl Gəncə gimnaziyasında orta təhsilini başa vurmuş, sonra (1902) Odes-sa Universitetinin hüquq fakultəsində oxumuşdur. Universitetdə təhsil alan azər-baycanlı tələbələr tərəfindən yaradılan "Azərbaycan təşkilatı"nın rəhbərlərindən biri kimi fəaliyyət göstərmişdir. Bu illərdə çəkilmiş foto - şəkildə (1904) Nəriman Nərimanov, Şahmalıyev qardaşları ilə yanaşı Nəsibbəyi də görürük.



Allahverdi Eminov

İxtişaşlardan qorxuya düşən Çar hökuməti Odessa Universitetinin bağlan-masına nail olur. Yusifbəyli Nəsibbəy Krımın Bağçasaray şəhərində məskunlaşır. Bu şəhərdə tanınmış ictimai xadim, jurnalist İsmayılbəy Qaspirinski (1851-1914) "Tərcüman" qəzetini buraxırdı. N.Yusifbəyli bu qəzetdə maraqlı məqalələrilə çıxış edir. Və İsmayıl bəyin qızı Şəfiqə Sultan xanımla (1886-1975) evlənir. Bağçasa-rayda o, görkəmli dramaturqumuz Ə.Haqverdiyevin (1870-1933) "Dağılan tifaq" faciəsini tamaşaya qoyur, özü Nəcəfbəy rolunu oynayır"Tərcüman" qəzeti bu haqda məlumat vermişdir.

N.Yusifbəyli (görkəmli maarif xadimi F.Köçərlinin (1863-1920) "Azər-baycan ədəbiyyatı və Hüseyn Əfəndi Qayıbovun (1830-1917) Azərbaycanda məş-hur olan "Şüəranın əşarına məcmuədir" adlı əsərini çap etdirməyə çalışır, nail ola bilmir, müxtəlif səbəblərdən...

N.Yusifbəyli (1908-ci ildə təhsilini Xarkov Universitetinin hüquq fakultə-sində davam etdirsə də, maddi imkansızlıq ucbatından IV kursda təhsilini atmışdır. Çar hökumətinin təqiblərindən yaxa qurtarmaq üçün bir müddət İstambulda yaşa-malı olur və 1909-cu ildə məcburiyyət qarşısında qalıb Gəncəyə - doğma yurduna qayıdır.

Dahi dramaturq M.F.Axundovun (1812-1878) anadan olmasının 100 illiyi yaxınlaşırdı, bununla bağlı tədbirlərə hazırlıq aparılırdı. Nəsibbəy Yusifbəyli də öz töhfəsini verdi. 1911-ci ildə, 20 mayda "Tərcüman" qəzetində bir məqalə çap et-dirdi, M.F.Axundov yaradıcılığı haqqında müfəssəl məlumatla oxucuları tanış etdi.

N.Yusifbəyli o illərdə "Molla Nəsrəddin" jurnalının müdafiəsinə qalxan ziyalı idi, 1909-cu ildə "Tərcüman" qəzetində (sıra nömrəsi 36) "Mətbuat" adlı məqaləsini də xatırlamaq pis olmazdı. Rusiyada çıxan müsəlman satirik jurnalın-dan danışan məqalədə müəllif "Molla Nəsrəddin"ə xüsusi qiymət verirdi. Polemik ruhlu məqalədə N.Yusifbəyli "Molla Nəsrəddin" jurnalına haqsız hücumları ciddi tənqid atəşinə tuturdu.

O, Gəncədə maarifçilik işi aparırdı, eyni zamanda Gəncə Bələdiyyə idarə-sinin üzvü idi, Ali ruhani mədrəsəsində dərs deyirdi, ana dilində ilk kitabxananın yaradılması təşəbbüsçüsü idi. Nəsibbəy Yusifbəyli ehtimala görə bu illərdə "Təs-lim" adlı roman da qələmə almışdır. "Azərbaycan ədəbiyyatı tarixi" əsərini başa çatdırmışdır. Bu kitabın əlyazmasının taleyi də naməlumdur.

Rusiyada 1917-ci ildə Fevral Burjua inqilabı baş verdi, bu ilin mart ayında N.Yusifbəylinin rəhbərliyilə "Türk aləmi mərkəziyyət partiyası" yaradıldı. Partiya Rusiyanı Federativ şəkildə qurmaq, onun tərkibində Azərbaycana muxtariyyat ver-mək uğrunda mübarizə aparırdı. Partiya xalqı öz proqramı ilə tanış etmək məqsədilə Şah Abbas məscidinin həyətində mitinq keçirdi. "Yaşasın Azərbaycan muxta-riyyatı", "Yaşasın demokratik respublika", "Yaşasın türk adəmi - mərkəziyyət partiyası" şüarları altında keçirilirdi (Bax: "Baku" qəzeti, 12 aprel 1917). May ayında Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayında iştirak və rəhbərlik etmişdir. Belə ki, siyasi və ictimai xadim Ə.Topçubaşov (1862-1934), müsəl-man Demokratik "Müsavat" partiyasının rəhbəri M.Ə.Rəsulzadə (1884-1955) təklif irəli sürmüşlər ki, Rusiyanı federativ şəkildə qurub və Azərbaycana muxtariyyat verilməsi uğrunda mübarizədə birləşib vahid cəbhədə hərəkət etməlidir. Həmin ilin iyununda hər iki partiya birləşib "Türk adəmi - mərkəziyyət partiyası" "müsavat" adlandırıldı. Partiyanın Gəncə şöbəsinin rəhbəri Nəsibbəy Yusifbəyliydi.



N.Yusifbəyli bu illərdə xalqımızın öz istiqlaliyyətinə yiyələnməsi, azad və müstəqil olması üçün əhalinin müasir silahların sirlərinə yaxından yiyələnməsini tövsiyə edirdi. Nəsibbəy Yusifbəyli Zaqafqaziya Seyminin üzvü, 1918-ci ililn 26 aprelində yaranmış müstəqil Zaqafqaziya Respublikası hökumətinin Maarif Komissarı idi.

1918-ci ilin 28 mayında ADR elan olundu. N.Yusifbəyli bitərəf Fətəlixan Xoyskinin (1875-1920) Baş nazir olduğu kaolisiyalı Birinci kabinetində xalq maarifi naziri vəzifəsini icra etməli oldu. F.Xoyskinin başçılıq etdiyi İkinci və Üçüncü kabinetində də həmin vəzifədə çalışmışdır. N.Yusifbəyli 1919-cu il aprelin 14-də Azərbaycan Respublikası Nazirlər şurasının sədri təyin olundu və bu vəzifə-ni 1920-ci ilin biri aprelinə qədər icra etdi. 1919-cu il, 28 may. Xalqımız ağır gün-lərini yaşayırdı. General A.P.Denikinin (1872-1947) rəhbərliyi ilə könüllü ordu ilə müharibə vəziyyəti olduğu təqdirdə istiqlaliyyətimizin bir illiyini qeyd etdi. N.Yu-sifbəyli bu vaxt Baş nazir vəzifəsini daşıyırdı. Azərbaycan əhalisini təbrik etdi: "Millətinin həyatında bu kiçik vaxtda Azərbaycan türkləri özünün müstəqil dövlət həyatı qabiliyyətinə malik olmasını göstərdilər" - yazmışdı.

N.Yusifbəyli Baş nazir olduğu dövrdə Dövlət orqanizmi tam formalaşmışdı və çoxpartiyalı parlament isə xalqın arzusuna müvafiq qərarlar çıxarırdı. 1920-ci ilin yanvarın 11-də Antata dövlətləri Azərbaycan respublikasının istiqlaliyyətini tanıması haqqında qərar çıxartdılar. Bu, hökumətin böyük nailiyyəti sayılırdı.

Nəsibbəy Yusifbəyli baxmayaraq ölkənin çətin vəziyyətində Mustafa Kamal Atatürkün (1882-1938) rəhbərlik etdiyi Anadolu istiqlal savaşında rəğbət bəsləyərək 1920-ci ilin martında cüzi də olsa Ankaraya valyuta göndərdi...

1920-ci ilin 27 aprelində Sovet Rusiyasının XI Ordusu Azərbaycan De-mokratik Respublikası ərazisinə soxuldu və işğal etdi. Milli İstiqlal hərəkatının bə-zi xadimləri ölkəni tərk etdilər. Belə ki, 1920-ci ilin 30 iyununda rus dilində çıxan "Kommunist" qəzeti (N49) Nəsibbəy Yusifbəylinin İstambula getməsi barədə yaz-dı. "İstihad" partiyasının rəhbərlərindən biri S.M.Qənizadə (1886-1942) isə xatirə-lərində bu faktı təkzib etmişdir. M.Ə.Rəsulzadə N.Yusifbəylinin xatirəsinə həsr etdiyi məqaləsində onun gürcüstanın Siğnax mahalında həlak olmasını yazmışdır. (Bax: M.Ə.Rəsulzadə: Nəsibbəy Yusifbəyli, "Odlu yurd" jurnalı, N3, 1 mart 1931, səh 64). ADR-nin əks-kəşfiyyat idarəsinin rəsmi işləmiş N.Şıxzamanlı N.Yusif-bəylinin Azərbaycanın Ərət qəzasında naməlum şəxslər tərəfində öldürüldüyünü qeyd etmişdir. ADR-nin maliyyə naziri olmuş Əbdüləli bəy Əmircanov (1874-1948) N.Yusifbəylinin Azərbaycan ərazisində yoxa çıxmasını göstərmişdir. (Bax: Ə.Əmircanov. Böyük Ermənistan xəyalı və Qarabağ: Erməni vəhşəti. İstambul, 1992, səh. 137). Beləliklə, böyük şəxsiyyət: ictimai - siyasi və dövlət xadimi Nə-sibbəy Yusifbəylinin ölüm tarixi hələ də dəqiqləşdirilməmişdir.

Keçmişə qayıdaq: N.Yusifbəyli 1917-ci ildə Şəfiqə Soltandan ayrılır və və Əynülhəyat xanım Bayışevaya evlənir. Birinci nigahdan iki uşağı doğulmuşdu, ikinci nigahdan uşağı olmamışdı, amma ilk nigahdan olan övladlarına atalıq qayğı-sını əsrigəməmişdir. 1920-ci ilin 27 aprelində N.Yusifbəyli keçmiş həyat yoldaşı Şəfiqə xanım Soltanın evinə gəlmiş, cibindəki axırıncı pulları stolun üstünə qoy-muş və doğma uşaqlarını qorumağı xahiş etmişdir... Cibində bir manatı da olmayan N.Yusifbəyli öz yaxın dostu, "Əhrar" partiyasının rəhbərlərindən biri Əşrəf Ta-ğıyevə (1860-1930) xəbər göndərir ki, gəlib onu Gürcüstana ötürsün. Əşrəf Tağı-yev dövrünün cəsur şəxsi idi və o, Nəsibbəy Yusifbəylinin, "Musavat" partiyasının Bakı Komitəsinin üzvü Yusif İbrahimlini (1883-1930) götürərək hökumət avto-mobililə Gürcüstana yola düşmüşlər. Və Nəsibbəyi Gürcüstana keçirmişlər. Sən demə, avtomobildəkilər quldurlar imiş. Avtomobilin istiqamətini Kürdəmir isti-qamətinə yönəltmişlər. Sən demə, Nəsibbəyin əlindəki kiçik çamadandan quldurlar şübhələnmişlər ki, onun içində qızıl əşyalar vardır, bu müsafir xaricə qaçır. Yollara nabələd rus sürücüsü işdən hali olmayıb, maşını qumluq yolu ilə Kür çayına yaxın meşəliyə sürür. Qatillər Nəsibbəyi öldürürlər. Kürdəmir qəzası o dövrdə indiki Zərdab rayonu əhatə edirdi. Sürücü maşından tullanaraq canını qurtara bilmişdir. O, sonralar Gürcüstan menşeviklərinə qoşulmuşdur. Qatillər cinayətin izini itirmək məqsədilə Nəsibbəyin böyük qardaşı Həmidbəyə (1878-1942) saxta məktub gön-dərirlər ki, Nəsibbəy İstambulda pulsuzluq ucbatından dilənçilik edir, qardaşından pul istəyir. Qardaşının qətlindən xəbərsiz olan Həmidbəy məktub gətirən canilərə pul vermişdir.

Bu dövrdə Nəsibbəyin birinci arvadı Şəfiqə xanım Sultan Qaspirinski Azər-baycan SSR hökuməti orqanlarına rəsmi ərizə ilə müraciət etmiş, İstambula getmək icazəsini istəmişdir və iki uşağını da özüylə İstambula aparmışdır. Nəsibbəyi görən bir nəfər də tapılmışdır. Lakin bir təsadüf nəticəsində Nəsibbəyin keçmiş sürücüsünə rast gəlmişlər. O, Şəfiqə xanıma ərz etmişdir ki, Nəsibbəy Yusifbəyli Kür ça-yının yaxınlığında öldürülmüşdür. Şəfiqə xanım Gəncədə yaşayan qardaşı Həmid-bəyə məktub yazaraq məsələdən onu agah etmişdir. Həmidbəy yaxın qohumları ilə Kürdəmirə gəlmiş, qardaşının həqiqətən bu ərazidə qətlə yetirildiyini dəqiqləş-dirmişdir. Bəli, Nəsibbəy Yusifbəylinin ömür taleyi belə bir faciə ilə sonuclan-mışdır.

Maraqlı və qəribə taledir ki, xalqımızın böyük dövlət və ictimai xadimləri Babəkdən üzü bəri müxtəlif səbəblərdən ya qəzaya uğradılmış, ya da qətlə yeti-rilmişdir. Tariximizdə şərəfli yer tutan, ilk maarif naziri və Baş nazir Nəsibbəy də istisna olmadı, ömrünü faciə ilə başa çatdırdı. Nəsibbəy Yusifbəyli bu gün xatırlanırmı, adına məktəb, küçə, qəsəbə vardırmı?

**Yuxarıda vurğuladığım kimi: "Biz unutqan deyilik!"**

# Azərbaycanda narkomanların dəqiq statistikası niyə yoxdur?



## Qanunvericilikdəki boşluqlar qeydiyyatın və onların təhlilinin aparılmasına əngəllər yaradır

**Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra ölkədə işsizlik, işğal edilmiş torpaqlardan gələn qaçqın və məcburi köçkün axını, iqtisadi böhran, sərhədlərin lazımınca qorunmaması narkotiklərdən istifadə hallarının artmasına səbəb oldu. SSRİ-nin dağılması nəticəsində yaranmış bütün sosial dəyişikliklər narkomaniyanın yayılmasına səbəb olan əsas amillər sırasında idi.**

Bəllidir ki, Azərbaycan tranzit ölədir və narkotiklərin Asiyadan Avropaya və Rusiyaya nəqli marşrutunda yerləşir. Ölkəmizdə istifadə edilən narkotiklərin çoxu xaricdən gəlir, çünki Azərbaycanda narkotiklərin becərilməsi və istehsalı məhduddur.

Lakin, buna baxmayaraq, son vaxtlar hətta orta məktəblərdə belə, narkomaniyaya aludə gənclərin sayının çoxalması ölkəmizdə də bu problemin təhlükəli məqamlarından xəbər verir. Onların arasında qızların da olması, daha doğrusu, çoxalması bu bəlanın inkişaf səviyyəsindən xəbər verir. Əgər işsiz, məşğuliyyətsiz, normal həyat şəraiti sürməyən bəzi insanlar problemlərin qarşısında aciz qalıb tüfeyli həyata meyllənərək və ya hər hansı bir mühitə düşərək narkotikə qurşanırlarsa, bəzi imkanlı ailələrin övladları əyləncə növü olaraq narkotiklərdən istifadə edərək narkomaniyaya düçar olurlar. İstənilən halda narkomaniyanın inkişafı gənc nəslə dəyən böyük zərbədir.

Yeri gəlmişkən, şəxsi araşdırmalarım göstərir ki, Azərbaycan dünyanı narkotik xaosuna salmış İranla sərhəd olsa da, aidiyyəti qurumların səyi nəticəsində Azərbaycanda narkotiklə mübarizə digər ətraf ölkələrdən dəfələrlə yaxşıdır.

Statistikaya əsasən, bu gün ölkədə təxminən 36 600 (hərə 1 rəqəm yazır) narkoman qeydiyyatdadır. Lakin adətən belə məsələlərdə rəsmi statistik rəqəmlər real nəticələrdən 5-8 dəfə az olur. Bu isə onu göstərir ki, əslində onların sayı daha çoxdur. Lakin bu gün Azərbaycanda hər hansı formada narkomaniyaya qoşulan insanların sayı 200 mini ötür. Rəqəmlər arasındakı belə uyğunsuzluq isə həmin şəxslərin rəsmi qeydiyyatdan yayınmaları ilə bağlıdır. Buna səbəb isə, zənnimcə, bu sahədə mövcud olan statistik məlumatların qeydiyyatı sistemində çatışmazlıqların olmasıdır. Bu uyğunsuzluq səhiyyə sistemində narkotiklərlə bağlı göstəricilərin statistik qeydiyyatının, təhlilinin və şərhinin verilməsi ilə bağlıdır. Məndə olan məlumata əsasən, bu gün qeydiyyat sistemində olan bəzi çatışmazlıqların nəticəsində dünya standardlarına uyğun təhlil və müqayisələr aparmaq mümkün olmur.

Səhiyyə Nazirliyi qeydiyyata götürdüyü xəstələrin, o cümlədən narkomanların statistikasını cəmi üç yaş kateqoriyası üzrə təqdim edir: 18 yaşa qədər, 19-35 yaş arasında və 35 yaşdan yuxarı. Əslində, bu sahə üzrə məlumatları digər Avropa ölkələri üzrə məlumatlarla müqayisə etmək üçün yaş şkalası beş il intervalı ilə qurulmuşdur. Yəni 20-25 yaş, 26-30 yaş, 31-35 yaş və s. Bu gün ölkədə belə qeydiyyat sisteminin olmaması epidemioloji xarakter daşıyan xüsusi tədqiqatların keçirilməsini çətinləşdirir.

Səhiyyə qeydiyyatı sistemində mövcud digər mühüm çatışmazlıq xəstələrin qeydiyyatında vahid identifikasiya-kodlaşdırma sisteminin olmamasıdır. Xəstələrin qeydiyyatı mexaniki üsulla aparılır. Xəstələri qeydiyyata götürəndə xüsusi blank forması doldurulur. Formada xəstə haqqında şəxsi məlumat, xəstəlik haqqında məlumat (diaqnoz) və təyin olunan müalicə haqqında məlumat olur.

Müalicə müəssisələrində qeydiyyata alınmış xəstələr haqqında məlumat Respublika Narkoloji Dispanserinə, sonra isə Səhiyyə Nazirliyinin statistika şöbəsinə ötürülür. Respublika Narkoloji Dispanserinə vaxtaşırı ötürülən ümumi məlumatlar statistik xarakter daşıyır. Müalicə kartları olan tam təsnifatlı məlumatlar isə Respublika Narkoloji Dispanserinə gecikdirmələrlə ötürüldüyü üçün və onların təhlili çox vaxt mexaniki üsulla aparıldığından, ayrı-ayrı xəstələr haqqında məlumatın təhlili gecikir. Məsələn, eyni xəstə bir il ərzində Bakıda və Azərbaycanın digər bölgəsində müalicə kursu alırsa, o, iki dəfə qeydiyyata götürülmüş olur. Bu xəstə haqqında təsnifatlı məlumat Respublika Narkoloji Dispanserinə gəlincə, müalicə alan xəstənin eyni adam olduğu müəyyənləşincə, statistik məlumatlarda mexaniki səhvlər yaranır.

Fikrimcə, qeydiyyatla bağlı çatışmazlıq yalnız səhiyyə sistemində deyil, hüquq-mühafizə orqanları tərəfindən aparılan müvafiq qeydiyyat sistemində də özünəməxsus formada mövcuddur.

Səhiyyə sistemində olduğu kimi, narkotiklərlə bağlı törədilən cinayətlər və məsuliyyətə cəlb olunan şəxslərin də qeydiyyatı cəmi üç yaş qrupuna bölünərək aparılır. Məncə, Daxili İşlər Nazirliyinin və Dövlət Komissiyasının İşçi Qrupunun statistik məlumatlarında tətbiq olunan sosial-demoqrafik göstərici şkalaları da natamamdır. Hər iki qurum məsuliyyətə cəlb olunan şəxslərin məşğuliyyət xüsusiyyətlərinə aid statistik şkalada cəmi üç qrupu qeyd edir: qulluqçular, fəhlələr və işsizlər. Bu, natamam qeydiyyat şkalasıdır. Çünki burada muzdlu işçilər, mövsümi işlə təmin olunanlar, kənd təsərrüfatı, sahibkarlıq və s. sahələrdə işləyən qrupda bölgü yoxdur. Eyni zamanda, Daxili İşlər Nazirliyinin və Dövlət Komissiyasının İşçi Qrupunun təqdim etdiyi məlumatlar arasında cinayət məsuliyyətinə cəlb olunanların ailə vəziyyəti və maddi durumu ilə bağlı məlumatlar əksini tapmır.

Məsuliyyətə cəlb olunanların və narkotik maddələr qəbul edənlərin hansı çevrədə, şəraitdə, hansı müddət ərzində bu işlə məşğul olmaları və s. məqamlarla bağlı göstəricilər hesabatlarda əks olunmur. Rəsmi mənbələrdən belə məlumatlar alınmadıqda epidemioloji təhlilləri yalnız xüsusi sorğuların nəticələrinə əsasən aparmaq olur. Bu da göstəricilərin müqayisəli təhlilini aparmağa və epidemioloji durum haqqında tam təsəvvür yaratmağa imkan vermir. Ölkənin narkotiklərlə bağlı qanunvericiliyində mövcud olan boşluqlar qeydiyyatın və onların təhlilinin aparılmasına əngəllər yaradır.

Maliyyə mənbəmiz olmasa da, bizim "Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyi"nin bir işi də gənclər arasında narkotik maddələrə tələbatın azaldılmasıdır. Bu məsələ təbii ki, bütün cəmiyyətin fəaliyyətinə daxil olmalıdır. Məktəblərdə şagirdlər, müəllim və valideynlər arasında birbaşa təlim kurslarının keçirilməsi, narkomanlığın ilkin simptomları, ilkin araşdırılması, narkotik maddələrin sui-istifadəsi ilə bağlı olan davranış halları üzrə ciddi iş aparmaqdır. Bəzilərinin mühitin təsiri altında hərdənbir narkotikin dadına baxan gənclərin üzə çıxması, profilaktik tədbirlərin aparılması, erkən müdaxilənin olunması çox mühümdür. Belə yeniyetmə və gənclərə qarşı psixoloji, lazım gəlsə, tibbi tədbirlər görülməlidir. Lakin reabilitasiya proqramları, onların dünyagörüşünə təsir edən tədbirlər bu gün təəssüf ki, yoxdur və ya maliyyə və səriştəsizlik problemi var. Bu sahədə həm maddi-texniki şəraitin, əmək haqqının həm də yüksək səviyyədə kadrların azlığı ilə izah edirəm.

Narkotikdən asılılığın hansı fəsadlar yarada bildiyinə gəlincə isə, bildirim ki, narkotiklər həm şprisdən qeyri-tibbi istifadə, həm pərakəndə cinsi əlaqələrin yaranmasına gətirib çıxarır. Bu da həm cinsi xəstəliklər, habelə İNİ-lər ( İnyeksion Narkotik İstifadə ) arasında ölümlə və ölümcül xəstəlikləri yaymaqla nəticələnən İİV immunçatışmazlığı virusu, QİÇS ( SPİD ), Hepatitlər və digər xəstəliklər də yayılır.

**Emil MAQALOV**
**Regional Sosial Təşəbbüslərə Dəstək İctimai Birliyinin sədri, narkoekspert**



# Cəmiyyəti təhdid edən böyük bəla - "ağ ölüm"

**"Ağ ölüm " kimi tarixə düşən, bəşəri bəla olan narkomaniya neçə-neçə insanın həyatını məhv edir. Hazırkı dövrdə narkomaniya bütün dünyanı öz cənginə almışdır. Özü də ən çox gənc nəslin nümayəndələrini daha asan toruna salır. Bu da bir növ gələcəyimiz üçün böyük təhlükələrə şərait yaradır.**



Belə ki, illər ötür, gənclər bu fəlakətin dağıdıcı təsirindən xilas ola bilmir, nəticədə sağlamlığını itirir, öz potensialını cəmiyyətin inkişafına yönəltməyi bacarmır, əksinə, ağır bir yük kimi zamanın yaxasından asılı qalırlar. Odur ki, gənclərin narkotik vasitələrinə meylliliyinin artması ciddi narahatlığa əsas yaradır. Bunun qarşısını almaq üçün indi hər bir vətəndaşın fəal dəstəyi tələb olunur.

Respublikamızın hər yerində olduğu kimi, Astara rayonunda da bu ümumbəşər bəlaya qarşı ciddi mübarizə aparılır. Növbəti belə tədbir Z.Əhmədzadə adına Pensər kənd 2 saylı tam orta məktəbdə baş tutdu. Astara Rayon Polis Şöbəsi, Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin, Astara Rayon Mərkəzi Xəstəxanası Publik- Hüquqi Şəxsinin birgə təşkilatçılığı sayəsində təşkil olunan "Narkomaniya əsrin bəlasıdır" adlı maarifləndirici seminara rayonda fəaliyyət göstərən orta məktəblərin yuxarı sinif şagirdləri və müəllim heyəti, kitabxana işçiləri, nümayəndələr qatılmışdı.

Natiqlər çıxışları zamanı tədbirin məqsədinin sağlam həyat tərzinin təbliği və tərənnüm edilməsi, eləcə də narkomaniyanın cəmiyyəti təhdid edən böyük bəla olduğunu, onun yaratdığı problemlər haqqında ətraflı danışdılar, gənclərə dəyərli tövsiyələrə verdilər, narkomaniyaya düçar olmuş insanları doğru yola çəkməyi, onlara kömək etməyi məsləhət bildilər.

Həmçinin, qeyd olundu ki, narkomaniyaya qarşı mübarizə nə qədər şərəfli və dəyərli olsa da, bir o qədər çətin və mürəkkəb işdir. Ən əsası isə gələcəyimiz olan yeniyetmə və gənclərlə belə görüşlərin keçirilməsi, onlara narkomaniyanın fəsadları barədə dolğun, düzgün məlumatların verilməsi olduqca mühüm əhəmiyyət daşıyır və bu sahədə davamlı, məqsədyönlü fəaliyyətə malikdir.

Yekunda nümayəndələr tərəfindən məktəbli gənclərin suallarına ətraflı, faktlar əsasında cavab verildi.

**Zəfər ORUCOĞLU**